RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 50 (8929) ŞƏNBƏ, 5 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Müstəqil siyasətin real mənzərəsi

## İlham Əliyevin uğurlu diplomatiyası Azərbaycanı beynəlxalq aləmdə öz mövqeyini diktə etməyi bacaran ölkəyə çevirib

Azərbaycanın xarici siyasətində prioritet olaraq qəbul edilən məqamlardan biri beynəlxalq münasibətlər sisteminin mühüm aktorlarından biri olan qarşılıqlı əlaqələrdir. Müasir dövrdə hər bir dövlətin beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutaraq özünü bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsi onun çağdaş dünya nizamının reallıqlarına cavab verən xarici siyasət yeritməsindən bilavasitə asılıdır.

Ölkəmizin son iyirmi illik tarixinə nəzər saldıqda görərik ki, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət kursu Azərbaycanın beynəlxaq aləmdə nüfuzunun yüksəlməsini şərtləndirib.

İlham Əliyevin son 18 ildə uğurlu siyasi-diplomatik fəaliyyəti, tam müstəqil siyasəti Azərbaycanı dünya ictimaiyyətinin diqqət mərkəzində olan və beynəlxalq aləmdə öz mövqeyini diktə etməyi bacaran ölkəyə çevirib. Dünyanın aparıcı söz sahibinə malik olan ölkələri və onların nüfuzlu tədqiqat institutları, beynəlxalq reytinq təşkilatları da bu faktları dəfələrlə etiraf ediblər.

Azərbaycanın hazırkı xarici siyasətində hər hansı istiqamətdə inteqrasiya nəzərdə tutulmayıb. Dövlətimizin xarici siyasəti bir istiqamətdə deyil, bütün istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığa yönəlmişdir. 2011-ci ildə Azərbaycan Qoşulmama Hərəkatına üzv olmaqla öz müstəqil xarici siyasi kursunu bəyan edib.

Azərbaycanın müstəqil xarici siyasəti ilk növbədə onun bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmasına söykənir. Azərbaycan heç bir hərbi-siyasi blokda iştirak etmir və böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, bütün ölkələrlə bərabər hüquqlarla qarşılıqlı faydalı əməkdaşlıq edir. Xarici tərəfdaşlarla əməkdaşlıq yalnız qarşılıqlı münasibətlərin olduğu halda mümkündür.

Qonşu ölkələrlə münasibətlərə gəlincə isə, demək olar ki, Ermənistandan başqa Azərbaycanın Rusiya, İran və Gürcüstanla münasibətləri hər zaman yüksək səviyyədə olub. Bu ölkələrlə imzalanan strateji tərəfdaşlıq sazişləri müxtəlif istiqamətlər üzrə əlaqələri daha da genişləndirib.

Azərbaycan qonşu ölkələrlə beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir, BMT və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyirlər. Azərbaycan İran ilə İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində, Rusiya və Gürcüstanla ATƏT, MDB, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurla əməkdaşlıq edir.

Bu bir həqiqətdir ki, İlham Əliyevin prezidentliyi dövrünə təsadüf edən son 10 ildə respublikamız zamanı qabaqlayan inkişaf tempi ilə dünyanı heyrətləndirə bilib. Bu qısa zaman ərzində Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda, ümumilikdə Avroatlantika geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən İlham Əliyevin yürütdüyü müstəqil siyasət dövlət başçısının xalqın, dövlətin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir.

Ardı 4-cü səh.

## Əmək pensiyasına qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 3135 nömrəli Sərəncamının icrasını təmin etmək və əmək pensiyasına qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

1.1. 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına 2022-ci ildə aylıq əmək pensiyası məbləğinin (qulluq stajına görə əlavələr nəzərə alınmaqla) 10 faizi məbləğində aylıq maddi yardımın hər ay onların pensiyasının məbləği ilə birlikdə ödənilməsini təmin etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maddi yardımın 2023-cü il yanvarın 1-dən etibarən onun şamil edildiyi əmək pensiyaçılarının pensiyalarının tərkibinə daxil edilməsinə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maddi yardımın dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün zəruri tədbirlər görsün;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncamın 1-ci hissəsi 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2022-ci il*

## YENİ AZƏRBAYCAN PARTİYASI 30

### Cəmiyyətdə müasirliyin əsas tərəfdarı və təşəbbüskarı

Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, müstəqilliyinin bərpasının 30 ilini arxada qoyan müasir Azərbaycanın keçdiyi inkişaf yoluna, qazandığı uğurlara bələdçilik edən, ümumxalq partiyası kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyasının tarixi Zəfərimizin reallıqları fonunda keçirilən VII qurultayından bir il ötür.

Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin partiyanın VII Qurultayında proqram xarakterli çıxışı keçilən yolun aydın mənzərəsini yaradır.

"Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır", - söyləyən Prezident İlham Əliyev bildirir ki, Ümummilli Liderin siyasi təcrübəsi, bilikləri, xalqımız qarşısında xidmətləri, hələ Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz Vətəninə, dövlətinə olan sadiqliyi Azərbaycanın mütərəqqi insanlarını bu dahi şəxsiyyətin ətrafında birləşdirdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü dövlətə, xalqa xidmət nümunəsidir. 1969-1982-ci illərdə ölkəmizə rəhbərlik edərkən Azərbaycanı keçmiş ittifaq respublikaları arasında ən qabaqcıl diyara çevirən Ümummilli Lider 1993-cü ildə yenicə müstəqilliyini bərpa edən Azərbaycanda xalqın təkidli tələbi əsasında hakimiyyətə qayıdışı ilə ölkəmizi xaosdan, anarxiyadan, özbaşınalıqlardan, vətəndaş qarşıdurmasından, ən əsası müstəqilliyini itirmək təhlükəsindən xilas etdi.

Ardı 3-cü səh.

### Zəfər partiyası

Azərbaycan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə özünün qələbələr salnaməsinə daha bir möhtəşəm səhifə əlavə edərək tarixi Zəfər qazandı.

Bu zəfər qətiyyətli sərkərdənin "dəmir yumruğ"u, qüdrətli ordunun şücaəti, xalqın liderinə sarsılmaz inamı sayəsində reallaşdı. Bu qələbə ilə Azərbaycan dövləti 2 əsrlik münaqişəyə, 30 illik müharibəyə son qoydu, torpaqlarımız düşmən tapdağından azad edildi, yüz minlərlə insanın ağır kədərlə daşıdığı məcburi köçkün statusu ləğv olundu, soydaşlarımızın yurd, torpaq həsrətinə son qoyuldu.

Savaşdan sonrakı dövrdə isə Azərbaycanda proseslər iki mərhələdə həyata keçirilməyə başlanıldı: işğaldan azad olunmuş torpaqlarda, yəni Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq prosesi, digəri isə müasir mərhələyə qədəm qoymuş islahatların daha yeni məcrada icra olunması.

Ardı 3-cü səh.

## Azərbaycan neftinin qiyməti yüksəlir

### Bu, ölkəmizin strateji valyuta ehtiyatlarını artıracaq, iqtisadi dvidendlər gətirəcək




Dünya neft bazarında qiymətlər artmaqda davam edir. "Azeri Light" (CIF) markalı neftin 1 barelinin qiyməti martın 3-də qeydə alınmış (116,10 dollar) ən yüksək göstərici ilə müqayisədə 1.78 faiz və ya 2,07 dollar artaraq 118,17 dollar təşkil edib.

2022-ci il üçün Dövlət Neft Fondunun büdcəsində 1 barel neftin ortaillik ixrac qiyməti 50 ABŞ dolları nəzərdə tutulsa da, qiymətin 2 dəfədən çox artması onu deməyə əsas verir ki, büdcə gəlirləri getdikcə yüksələcək.

Ekspertlər hesab edirlər ki, Rusiya və Ukrayna arasında yaşanan müharibə dünya neft bazarına təsirini göstərməkdə davam edəcək.

Ardı 4-cü səh.

## Əhalinin məşğulluğu təmin edilir, gəlirləri artır

Əhalinin sosial müdafiəsinin ən etibarlı forması məşğulluğun təmin olunmasıdır. Çünki işləyən və yüksək gəlir əldə edən vətəndaşın digər sosial dəstəyə ehtiyacı qalmır. Odur ki, dövlət özünüməşğulluq proqramını icra etməklə yeni iş yerləri açır və vətəndaşlara gəlir əldə etmək imkanı yaradır.

Son dövrlərdə bu məsələyə xüsusi diqqət yetirilir. Ehtiyacı olanları maliyyə və texniki vasitələrlə təmin etməklə, onlara öz kiçik bizneslərini qurmağa dəstək verilir. Özünüməşğulluq proqramında Vətən müharibəsində şəhid olanların ailə üzvlərinə və qazilərə üstünlük verilir. Bu kateqoriyadan olan insanların sosial müdafiəsi təkcə pensiya və təqaüdlərin verilməsi ilə dəstəklənmir, eyni zamanda onlara cəmiyyətə inteqrasiya olunmaq üçün işləmək imkanı da yaradılır.

Bax: səh. 5



## Milli Məclisin iclasında

# İnsan hüquqlarının təmin edilməsi dövlətin ali məqsədidir

## Parlament ombudsmanın illik məruzəsini məqbul saydı





Martın 4-də spiker Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. İclasın gündəliyi təsdiq edildikdən sonra cari məsələlər müzakirə olunub.



Müzakirələr zamanı parlamentin komitə sədri Zahid Oruc, deputatlardan Könül Nurullayeva, Fazil Mustafa, Ceyhun Məmmədov, Şahin İsmayılov, Cavid Osmanov, Bəhruz Məhərrəmov, Müşfiq Cəfərov dünyada və ölkəmizdə gündəmdə olan məsələlər barədə fikirlərini açıqlayıblar. Çıxışlarda Rusiya-Ukrayna müharibəsi, bu məsələdə Azərbaycanın mövqeyi, dövlətimizin hər iki ölkə ilə münasibətləri barədə fikirlər səsləndirilib, ölkəmizdə hərbi, təhsil, humanitar sahələrdə görülən işlərdən bəhs edilib.

Deputatlar həmçinin "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Prezidentinin Sərəncamının əhəmiyyətindən söhbət açıb, bir sıra digər məsələlərə toxunublar.

Sonra parlamentin Sədri Sahibə Qafarova diqqətə çatdırıb iclasın gündəliyində 11 məsələ var. Bildirilib ki, birinci məsələ Milli Məclisin nəzarət funksiyasının mühüm istiqamətinin həyata keçirilməsi ilə bağlıdır. Qanunvericiliyə uyğun olaraq, iclasda insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) illik məruzəsi dinləniləcək.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında 2021-ci il üzrə məruzəni təqdim edib. Bildirib ki, ötən müddət ərzində ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi istiqamətində mühüm addımlar atılıb. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə işlərinin aparılması, müasir tələblərə cavab verən çoxşaxəli infrastrukturun qurulması, tarixi, dini və mədəni abidələrin bərpası, dağıdılmış yaşayış məntəqələrinin müasir tələblər səviyyəsində yenidən qurulması, Zəfər yolunun və Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Zəngəzur dəhlizinin təməlinin qoyulması və digər mühüm layihələrin həyata keçirilməsi Böyük qayıdışın təmin olunması ilə yanaşı, öz doğma ocaqlarına qayıdacaq keçmiş məcburi köçkünlərin uzun illərdir pozulmuş hüquqlarının bərpasında xüsusi əhəmiyyətə malikdir. Beynəlxalq hüquqla tanınan ərazi bütövlüyünü təmin edən ölkəmiz istər regional, istərsə də beynəlxalq səviyyədə sülh və sabitliyin qorunub saxlanmasına, insan hüquqlarının inkişafına böyük töhfə verib.

Qeyd edilib ki, koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində iqtisadi, sosial sahələrdə cavab tədbirləri müalicə və vaksinasiyanın hər kəsə əlçatan olması infeksiyanın yayılmasının qarşısının alınmasına, pandemiya ilə bağlı tətbiq olunan məhdudiyyətlərin yumşaldılmasına, insan sağlamlığının daha effektiv mühafizəsinə imkan yaradıb. Əmək haqlarının, pensiya və müavinətlərin, təqaüd və digər sosial ödənişlərin artırılması, aztəminatlı ailələrin və əhalinin həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi, şəhid ailələri və müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər həyata keçirilib.

Ötən dövrdə ombudsmanın ünvanına ümumilikdə 271442, 2021-ci ildə isə 31092 müraciət daxil olub. 2020-ci illə müqayisədə müraciətlərin sayı 13 faiz çoxalıb. Bu müraciətlərə müəyyən edilmiş qaydada baxılıb, ərizəçilərə insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı lazımi məsləhətlər verilib.

Əhalinin həssas qruplarının, o cümlədən şəhid ailələrinin, müharibə veteranlarının, ahılların, pensiya yaşına çatmaqda olan vətəndaşların, aztəminatlı və çoxuşaqlı ailələrin rifah halının, məşğulluq vəziyyəti və işsizlik hallarının həlli istiqamətində zəruri tədbirlər həyata keçirilib. Həmçinin Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin raket atəşinə tutulması nəticəsində şəhid olan mülki şəxslərin ailə üzvlərinin, evləri dağıdılmış vətəndaşların müraciətlərinə də xüsusi həssaslıqla yanaşılıb, məsələlərin həlli üzrə müvafiq tədbirlər görülüb.

İnsan hüquqlarının daha səmərəli təmin edilməsi məqsədilə əhalinin hüquqi maarifləndirilməsinə, qanunvericiliyin təkmilləşdirilməsinə, vətəndaş cəmiyyəti institutları və beynəlxalq təşkilatlar ilə əməkdaşlığa böyük önəm verilib.

Qeyd edilib ki, beynəlxalq səfərlər çərçivəsində keçirilən görüşlərdə ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlər, 44 günlük Vətən müharibəsi dövründə Ermənistanın törətdiyi cinayətlər, Azərbaycanın mülki obyektlərinə raket hücumlarının nəticələri, işğaldan azad edilmiş ərazilərdə ermənilər tərəfindən basdırılmış minaların yaratdığı təhlükələr, mina xəritələrinin verilməməsi, verilmiş xəritələrin isə həqiqətə uyğun olmaması və bu halların keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasına ciddi maneələr yaratması ilə bağlı məsələlər beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılıb. Eyni zamanda müxtəlif vaxtlarda ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının, Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun nümayəndə heyətləri işğaldan azad edilmiş ərazilərimizdə Ermənistanın raket hücumlarına məruz qalmış mülki yaşayış məntəqələrində faktaraşdırıcı missiyalar həyata keçirib, toplanmış faktlar əsasında hazırlanan hesabatlar müvafiq beynəlxalq təşkilatlara göndərilib. Vətən müharibəsi dövründən başlayaraq ümumilikdə 14 hesabat, 21 bəyanat, 23 müraciət, 150-yə yaxın mətbuat açıqlaması, 2 videoçarx hazırlanaraq beynəlxalq təşkilatlara göndərilib, təsisatın sosial hesablarından yayımlanıb.

Sonra çıxış edən parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, insan hüquqları üzrə müvəkkilin 2021-ci il üzrə məruzəsi Konstitusiyaya uyğun olaraq Azərbaycanda insan hüquq və azadlıqlarının durumunun müəyyənləşdirilməsi, eyni zamanda mövcud problemlərin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir, habelə müqayisəli təhlillər aparmağı və müxtəlif qanunverici, idarəetmə və digər xarakterli qərarlar çıxarmağı tələb edir. O, cari ildə yaradılmasının 20-ci ildönümünü qeyd edəcək ombudsman təsisatının mühüm ictimai status qazandığını, dövlət və vətəndaşlar arasında etibarlı instituta çevrildiyini söyləyib. Qeyd edilib ki, məruzədə yüzlərlə insanın şəxsi və onlayn platforma üzərindən qəbulu, 31 mindən artıq vətəndaşın müraciətlərinə baxılması və müvafiq tədbirlərin görülməsi, 184 dəfə cəzaçəkmə müəssisələrinə baş çəkilməsi faktları göstərilib. Müxtəlif hakimiyyət orqanları təmsilçilərinin hər bir müraciətə həssaslıqla yanaşmasının, insanların pozulan hüquqlarının təmin olunmasında ədalət və məsuliyyət nümayiş etdirilməsinin önəmli olduğu bildirilir.

İclasda insan hüquqları üzrə müvəkkilin məruzəsi ətrafında geniş müzakirələr aparılıb. Komitə sədri Qənirə Paşayeva, deputatlardan Nigar Arpadarai, Əziz Ələkbərov, Aydın Mirzəzadə, Erkin Qədirli, Razi Nurullayev, Əli Məsimli, Fazil Mustafa, Qüdrət Həsənquliyev, Etibar Əliyev, Sahib Alıyev, Fəzail Ağamalı məruzə ilə bağlı fikirlərini səsləndiriblər, sual və təkliflərini bildiriblər.

Müzakirələrin sonunda ombudsmanın illik məruzəsi nəzərə alınıb.

Sonra spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti beş məsələsi üçüncü oxunuşda olan qanun layihələridir.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsinə dair (üçüncü oxunuş) məlumatında bildirib ki, təklif edilən dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır və "Media haqqında" qanunun qüvvəyə minməsi ilə əlaqədardır. Təklif olunan dəyişikliyə əsasən, "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya qanununun 4.1.5-ci və 80.0.2.5-ci maddələrində "Milli Televiziya və Radio Şurası" sözləri "Azərbaycan Respublikası Audiovizual Şurası" sözləri ilə əvəz olunur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Tibbi sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Qanunun 15-11.8-ci maddəsinə təklif olunan dəyişikliyin məqsədi idxal olunan aksizli mallar üzrə icbari tibbi sığorta haqlarının ödənilməsinə nəzarət mexanizminin yaradılmasının təsbit edilməsidir. Qanunun 16-4.4-1-ci maddəsinə edilən düzəlişə əsasən isə, bu qanunun müştərək maliyyələşmə məbləğinə aid hissələrində 15-28.3-cü və 15-28.4-cü maddələri 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili sənəd barədə komitənin rəyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov növbəti iki məsələni - "Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" və "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihələrini üçüncü oxunuşda təqdim edib.

Gəncə şəhərinin inzibati ərazi bölgüsündə təklif olunan dəyişikliklərə əsasən, şəhərin tərkibindəki Kəpəz və Nizami rayonları ləğv edilərək Azərbaycan Respublikasının ərazi vahidlərinin dövlət reyestrindən çıxarılır. Ləğv edilmiş Nizami rayonunun tərkibindəki 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri müvafiq olaraq Gəncə şəhəri tərkibində 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri hesab edilir. Habelə ləğv edilmiş Kəpəz rayonunun tərkibindəki 1 və 2 nömrəli sahə Cavadxan, Hacıkənd, Məhsəti, Natəvan, Sadıllı, Şıxzamanlı qəsəbə inzibati ərazi dairələri isə müvafiq olaraq Gəncə şəhəri tərkibində 3 və 4 nömrəli sahə Cavadxan, Hacıkənd, Məhsəti, Natəvan, Sadıllı, Şıxzamanlı qəsəbə inzibati ərazi dairələri hesab edilir. Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qeyd olunan dəyişikliklərlə əlaqədar Azərbaycan Respublikasında bələdiyyələrin siyahısında da müvafiq düzəlişin edilməsi nəzərdə tutulub.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə danışarkən qeyd edib ki, məcəllənin 81.2-ci maddəsində "75.8-ci,75.11-ci" sözləri "75.9- 75.11-ci" sözləri ilə əvəz edilir. Eyni zamanda məcəlləyə yeni 102.4-3-cü maddə əlavə edilir. Əlavəyə əsasən, bu məcəllənin 102.4-2-ci maddəsində göstərilən əsasla icazə ləğv edildikdən sonra sifarişçi tikinti obyektinin istismarına icazə verilməsi üçün təkrar müraciət edə bilər. Təkrar müraciətə yalnız dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd əlavə edilir. Müvafiq icra hakimiyyəti orqanı və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum müraciət daxil olduğu gündən 2 iş günündən gec olmayaraq tikinti obyektinin istismarına icazəni sifarişçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, müzakirəyə çıxarılan növbəti beş məsələ birinci oxunuşda olan qanun layihələridir. Qeyd edilib ki, 7-ci məsələ "Qida təhlükəsizliyi haqqında" qanun layihəsidir.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Qida təhlükəsizliyi haqqında" qanun layihəsini birinci oxunuşda təqdim edərkən bildirib ki, bu gün müzakirəyə təqdim olunan qanun layihəsi milli təhlükəsizlik baxımından mühüm əhəmiyyətə malikdir və beynəlxalq norma və standartlara uyğun hazırlanıb.

9 fəsil, 40 maddədən ibarət olan qanun ölkəmizdə ilkin istehsal, istehsal və emal edilən, ölkəyə idxal olunan qida məhsullarına, habelə qida məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi mərhələlərinə şamil olunur. Sənəddə göstərilir ki, yerli qida və yem məhsullarının rəqabətqabiliyyətliliyinin və ixrac potensialının artırılması, onların ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası sahəsində sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması sahələri dövlət tərəfindən tənzimlənir.

Qanun layihəsində qida təhlükəsizliyi sahəsində dövlətin vəzifələri, əsas prinsipləri, istehlakçıların hüquqlarının müdafiəsi və qida təhlükəsizliyi sahəsində texniki normativ-hüquqi aktların hazırlanması və qəbulu ilə bağlı məsələlər öz əksini tapıb. Eyni zamanda qida təhlükəsizliyi sahəsində bir sıra tələblər, o cümlədən qida və yem məhsullarının, xüsusi təyinatlı qida məhsullarının və bioloji aktiv qida maddələrinin, həmçinin zənginləşdirilən qida məhsullarının təhlükəsizliyi və digər bir sıra məqamlara dair tələblər ehtiva olunub.

Layihədə qida təhlükəsizliyi sahəsində qeydiyyat, təsdiq, sertifikatlaşdırma və izləmə məsələləri, qida və yem məhsullarının təhlükəsizliyinə dövlət nəzarətinə aid, həmçinin qida subyektlərinin hüquq və vəzifələri kimi məsələləri əhatə edən müddəalar da yer alıb.

Müzakirələr zamanı çıxış edən parlamentin komitə sədri Qənirə Paşayeva, deputatlardan Əli Məsimli, Qüdrət Həsənquliyev, Razi Nurullayev, İlham Məmmədov, Vüqar Bayramov qanun layihəsinin əhəmiyyətindən danışıblar, qida təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qeyd və təkliflərini bildiriblər.

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzov iclasda səsləndirilən fikirlərə münasibətini açıqlayıb.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Lisenziyalar və icazələr haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Diqqətə çatdırılıb ki, sənəd "Media haqqında" qanuna əsasən hazırlanıb və təklif olunan dəyişiklik lisenziya tələb olunan teleradio yayımı fəaliyyəti subyektlərinin "Media haqqında" qanunla müəyyən edilmiş audiovizual media fəaliyyəti subyektlərinin təsnifatına uyğunlaşdırma məqsədi daşıyır.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Komitə sədri Tahir Mirkişili "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar bildirib ki, bu sənəd də "Media haqqında" qanuna əsasən hazırlanıb və teleradio yayımı subyektlərinin adıçəkilən qanunla müəyyən edilmiş audiovizual media subyektlərinin təsnifatına uyğunlaşdırılmasını nəzərdə tutur. Layihədə audiovizual media fəaliyyəti ilə bağlı dövlət rüsumları öz əksini tapıb.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edən komitə sədri Tahir Mirkişili diqqətə çatdırıb ki, qanunun 11.2-ci maddəsinə əsasən, həmin maddədə nəzərdə tutulan məqsədlər üçün özəlləşdirməni həyata keçirən dövlət orqanının hesabına özəlləşdirmədən əldə edilən vəsaitdən ayırmalar edilir.

Təklif olunan dəyişikliyə əsasən, bu vəsaitlərin istifadə məqsədləri daha da genişləndirilir və buraya özəlləşdirmədən sonra müəssisələrin fəaliyyətinin dəstəklənməsi tədbirlərinin maliyyələşdirilməsi, dövlət əmlakının qorunub saxlanması və mühafizəsi, dövlət əmlakının satıcısının maddi-texniki bazasının möhkəmləndirilməsi məsələləri də daxil edilir. Dəyişiklik qeyd olunan sahələrdə müvafiq dövlət orqanının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə xidmət edəcək.

Deputat Əli Məsimli bu məsələ ilə bağlı fikirlərini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov "Antiinhisar fəaliyyəti haqqında", "Yeyinti məhsulları haqqında" və "Dövlət sirri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar məlumat verib.

Bildirilib ki, "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin yaradılması haqqında" Azərbaycan Prezidentinin 7 oktyabr 2021-ci il tarixli Fərmanı ilə dövlət və səfərbərlik ehtiyatlarının yaradılması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən, habelə ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlığını təmin etmək və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq məqsədilə Dövlət Ehtiyatları Agentliyi yaradılıb. 2022-ci il fevralın 10-da müvafiq fərmanla qurumun nizamnaməsi təsdiq edilib. Müzakirəyə təqdim olunan qanun layihəsi adıçəkilən fərmanlara uyğun olaraq hazırlanıb və dəqiqləşdirmə xarakteri daşıyır.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu və Aqrar siyasət komitələrinin sənədlə bağlı müsbət rəyi dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

1992 2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

30



# Xalqın siyasi etimad ünvanı

Azərbaycanın ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının qurultayları həmişə respublikamızın həyatına mühüm hadisə kimi həkk olunub.

Bu da ondan irəli gəlir ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu il təsis edilməsinin 30 ili tamam olan YAP hər zaman xalqın etimadını doğruldub. Bu gün də YAP siyasi proseslərin önündədir və öz fəaliyyəti ilə dövlətimizin həyata keçirdiyi bütün proseslərə layiqli töhfələr verir.

Təbii ki, YAP-ın 30 ilə yaxındır ki, respublikamızın aparıcı siyasi qüvvəsi kimi fəaliyyət göstərməsinin təməlində, ilk növbədə lider amili dayanır. Bu mənada YAP- ın bütün uğurlarını Ulu Öndər Heydər Əliyevin siyasi irsində, Prezident İlham Əliyevin məqsədyönlü siyasətində axtarmaq lazımdır. Təsadüfi deyil ki, güclü liderləri sayəsində, həmçinin mükəmməl proqramı, təkmil siyasi platforması, qətiyyətli mövqeyi ilə YAP bu gün sıralarında 760 mindən çox insanı birləşdirən ümumxalq siyasi təşkilatıdır.

Bu gün isə YAP-ın VII Qurultayının keçirilməsindən bir il ötür. 2021-ci il mart ayının 5-də keçirilən VII qurultay yeni vəzifələrin müəyyən edilməsi və partiya fəaliyyətində mühüm qərarların qəbulu ilə əlamətdar oldu. Qurultay bir daha təsdiq etdi ki, YAP Azərbaycan xalqının alternativsiz siyasi etimad ünvanıdır.

Siyasi partiyaların qurultaylarının keçirilməsi müəyyən zərurətlərdən irəli gəlir. YAP-ın VII Qurultayının keçirilməsi üçün kifayət qədər güclü əsaslar mövcud idi. Təsadüfi deyil ki, cənab Prezident qurultayda nitqinə məhz bununla başlamışdı. Dövlət başçısının qeyd etdiyi kimi, VI qurultaydan ötən üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdi. Bu dövrdə Prezident İlham Əliyevin hələ 2018-ci ilin aprel seçkisindən sonra elan etdiyi yeni islahatlar uğurla reallaşdırılmış, cəmiyyət həyatında olduqca mühüm keyfiyyət dəyişiklikləri baş vermişdi. Bütün bunlardan irəli gələrək Azərbaycanın daha da qüdrətli ölkəyə çevrilməsi istiqamətində atılan addımların uğurlu nəticələri göz önündədir. İdarəetmədə, məhkəmə-hüquq sistemində, iqtisadi və sosial sferada həyata keçirilən islahatlar cəmiyyətimizdə yeni əhvali-ruhiyyə yaratdı.

Həmin dövrün ən böyük hadisəsi isə əlbəttə ki, İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm və tarixi qələbədir. İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan öz gücü ilə torpaqlarını işğaldan azad etdi. Bu zəfərlə tariximizin şərəf salnaməsi yazıldı. “Partiyamızın VI qurultayından üç il ötür. Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı qələbəmiz qürur mənbəyimizdir”, - deyə Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev qurultaydakı nitqində bildirmişdi.

YAP-ın VII Qurultayı cəmiyyətimizdə baş verən yeniliklər, islahatlar, pozitiv dəyişikliklər fonunda keçirildi. Bütün bunlar, həm Vətən müharibəsindəki qələbə, həm də mütərəqqi islahatlar respublikamızın aparıcı və hakim siyasi partiyası, xalq etimadının əvəzsiz ünvanı olan YAP-ın uğurlarıdır. Bu uğurların hər biri YAP-ın prinsiplərində, məram və nizamnaməsində yer alan məsələlərin, məqsəd və vəzifələrin həyata vəsiqə alması deməkdir.

YAP-ın VII Qurultayında qəbul edilən qərarlar isə əvvəldə qeyd etdiyim pozitiv yeniliklərə, xüsusən idarəçilikdə həyata keçirilən islahatlara adekvat idi. Bu qərarlar həm də onu göstərdi ki, YAP köklü, sarsılmaz təməllərə malik siyasi təşkilat olmaqla yanaşı, müasir çağırışları da diqqətdən kənarda qoymur, zamanın nəbzini tutmağı bacarır. Bu baxımdan yeni idarə heyətinin formalaşdırılması, struktur dəyişiklikləri, YAP fəallarının irəli çəkilməsi partiya fəaliyyətində keyfiyyətcə yeni mərhələnin əsasını qoydu.

Ötən bir ilin mənzərəsi göstərir ki, VII qurultay partiya fəaliyyətini yeni keyfiyyət mərhələsinə yüksəldib. Bu baxımdan yeni idarəçilik mexanizminin yaradılmasını qeyd etmək yerinə düşər. Yeni tərkibdə formalaşdırılan İdarə Heyəti partiyanın idarəçiliyinin daha da təkmilləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir. Bununla yanaşı, yeni nizamnamənin qəbulu da daha çevik partiya fəaliyyətinin həyata keçirilməsinə yol açıb.

Görünən odur ki, 30 il öncə xalqın siyasi sifarişi olaraq təsis edilən, bundan cəmi bir neçə ay sonra hakim partiyaya çevrilən, xalqın bütün sosial zümrələrini özündə birləşdirən YAP xalqın və dövlətin milli maraqlarına xidmət edən fəaliyyətini uğurla həyata keçirməkdədir.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# Cəmiyyətdə müasirliyin əsas tərəfdarı və təşəbbüskarı

*Əvvəli 1-ci səh.*

1992-ci ilin 21 noyabrında isə Yeni Azərbaycan Partiyasının yaradılması, Ulu Öndər Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi, 7 aydan sonra Ümummilli Liderin hakimiyyətə qayıdışı Azərbaycanın, həmçinin YAP-ın həyatında yeni dövrün əsasını qoydu. Artıq bu il yaradılmasının 30 illiyini qeyd edəcəyimiz Yeni Azərbaycan Partiyası dəyişməz prinsipləri, sözlə əməl birliyi sayəsində bu illər ərzində xalqın sevgisini qazandı, ümumxalq partiyasına çevrildi. 1992-ci il noyabrın 21-də məlum səbəblərdən təsis konfransını müxtəlif bölgələrdən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda keçirən YAP-ın sıralarında bu gün 800 minə yaxın üzv birləşir.

Yeni Azərbaycan Partiyasının VII Qurultayının keçirilməsi Prezident İlham Əliyevin islahatlar siyasətinin davamıdır. 2018-ci ilin prezident və 2020-ci ilin parlament seçkilərindən, xüsusən də 2020-ci ildə İkinci Qarabağ müharibəsində əldə olunmuş qələbədən sonra ölkədə və regionda yaranmış yeni reallıq siyasi islahatların dərinləşməsi üçün zəmin yaratdı. Yaranmış yeni reallıqlar iqtidar partiyasında islahatların aparılmasının və yeni fəaliyyət prioritetlərinin müəyyən olunmasının zəruriliyini müəyyən etdi. VII qurultayda qəbul olunmuş qərarlar milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlandığını nümayiş etdirdi. Partiyada birinci müavin vəzifəsinin təsis olunması və dövlət başçısı, partiya Sədri İlham Əliyev tərəfindən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavini təyin edilməsi idarəetmə prosesinin təkmilləşdirilməsinə xidmət edir. YAP-ın gələcək fəaliyyətinin prioritetlərini açıqlayan yeni qərarların qarşıya qoyduğu vəzifələr, eyni zamanda partiyanın yeni proqramının təsdiqlənməsini zəruri bir tələbə çevirdi. Dövlət başçısı, YAP-ın Sədri İlham Əliyev VII qurultayda yeni proqramın hazırlanması ilə bağlı tapşırıqlarını verdi. Demokratik dəyərlərə və milli maraqlara əsaslanan, habelə müasir yanaşma və metodları özündə ehtiva edən YAP-ın yeni proqramı partiyanın İdarə Heyətinin 2021-ci il 29 dekabr tarixli iclasında təsdiq edilmişdir. Beş fəsildən - “Partiyanın inkişafı və uğurları”, “Siyasi dəyərlər və prinsiplər”, “Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları”, “Partiyanın əsas hədəfləri” və “Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya” adlı fəsillərdən ibarət olan yeni proqramda Heydər Əliyev yolu, müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət, demokratik ənənələrin inkişafı, peşəkarlıq, işgüzar münasibətlər, şəxsi inkişaf, sağlam rəqabət, etik davranış və milli dəyərlər, innovativ inkişaf və kreativlik, elmilik, müasirlik, Heydər Əliyev irsinin təbliği və təşviqi, güclü iqtisadiyyat və davamlı inkişaf, inklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı, şəffaflığın artırılması, vətəndaş cəmiyyətinin inkişafı, Azərbaycan dili və dünya azərbaycanlılarının həmrəyliyi, mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması, vətəndaş həmrəyliyinin təminatı, milli maraqlar və xarici siyasət, ordu quruculuğu, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış kimi bölmələr öz əksini tapıb. Ölkənin inkişafına və cəmiyyətin tərəqqisinə xidmət edən Yeni Azərbaycan Partiyasının əsas hədəfləri proqramda müəyyən edilib. Heydər Əliyev irsinin təbliği və təşviqi, güclü iqtisadiyyat və davamlı inkişaf, inklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı, şəffaflığın artırılması, vətəndaş cəmiyyətinin inkişafı, Azərbaycan dili və dünya azərbaycanlılarının həmrəyliyi, mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması, vətəndaş həmrəyliyinin təminatı, milli maraqlar və xarici siyasət, ordu quruculuğu, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış partiyanın əsas hədəfləri sırasındadır.

Ümumiləşdirilmiş şəkildə qeyd etsək, Ulu Öndər Heydər Əliyevin məşhur “YAP dünənin, bu günün və gələcəyin partiyasıdır” tezisi bütün dövrlər üçün aktual olmaqla yanaşı, real həyatda özünü doğruldur. İlk olaraq “Yeni, müstəqil Azərbaycan uğrunda” devizi ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyasının bugünkü hədəflərinə diqqət yetirdikdə Azərbaycanın uğurlarının zirvəsində dayanan tarixi zəfərimizdən böyük qürur hissi keçiririk. Bu günümüzün əsas hədəfi işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinin tezliklə başa çatdırılması, soydaşlarımızın Böyük qayıdışını təmin etməkdir. Cəmiyyətin avanqard qüvvəsi olan Yeni Azərbaycan Partiyasının çoxminli üzvləri bütün bu işlərdə fəal iştirak edirlər. YAP yeni-yeni hədəflərə söykənərək daim irəli baxır, Azərbaycanın daha möhtəşəm uğurlara imza atmasına səy göstərir. Tezliklə Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycan cənnətməkana çevriləcək, doğma yurd-yuvalarına qayıdacaq, bu torpaqlarda yeni həyata başlayacaqlar. YAP-ın yeni proqramı müasir dövrün çağırışlarını və ölkəmizin davamlı inkişafını nəzərə almaqla özündə mütərəqqi dəyər və meyarları, prinsipləri, hədəfləri və vəzifələri birləşdirir. Yeni Azərbaycan Partiyasına sonsuz inam və etimad göstərən, həyata keçirdiyi siyasətə böyük dəstək verən xalqımız əmindir ki, bu hədəflərin və vəzifələrin yerinə yetirilməsi Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi tərəqqisinə böyük təkan verəcək, onun dünya birliyində mövqeyini daha da möhkəmləndirəcək. Bu baxımdan ki, YAP möhtəşəm uğurlara, ən yüksək zirvələrə yol açan partiyadır.

***Vüqar RƏHİMZADƏ,***
***Yeni Azərbaycan Partiyası Xətai Rayon Təşkilatının sədri,***
***siyasi elmlər doktoru***

# Zəfər partiyası

*Əvvəli 1-ci səh.*

Danılmaz həqiqətdir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatlar hər zaman uğurlu nəticələr verib, qlobal böhran şəraitində belə, hərtərəfli inkişaf templəri davamlı olub, sosial-iqtisadi sahədə ölkəmiz nəinki ağır fəsadlarla üzləşib, əksinə, təqdirəlayiq uğurlar əldə edib. Son illərdə cənab Prezidentin həyata keçirdiyi mütərəqqi islahatların, eləcə də dövlət strukturunda apardığı modernləşmənin daha müsbət effekt verdiyi göz önündədir. Təkcə bir faktı söyləmək yetərlidir ki, 2016-cı ildə ölkədə keçirilən ümumxalq referendumundan sonra siyasi sistemdə reallaşan yeniliklər, vitse-prezidentlik institutunun yaradılması və hörmətli Mehriban xanım Əliyevanın bu vəzifəyə təyinatı, bu sahədə onun həyata keçirdiyi islahatlar, dövlət siyasətinə verdiyi dəstək çox uğurlu nəticələrlə əlamətdar olub.

Bu islahatlar ölkənin hakim siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasında da davam etdirilib və əldə edilən müsbət nəticələr göz önündədir. Bu il 30 illik yubileyini qeyd edəcək YAP ötən dövr ərzində Azərbaycanın əldə etdiyi davamlı uğurların, nailiyyətlərin siyasi istinadgahı olub.

Bütün bunlarla yanaşı, YAP-ı həm də islahatlar partiyası da adlandırmaq olar. Partiyada davamlı şəkildə islahatlar aparılıb. Öncə cənab İlham Əliyevin sədr müavini, ardınca birinci müavin təyin olunması partiyanın təkcə gəncləşdirilməsi yox, həm də yeni tələblərə uyğun təşkilatlanmasını, partiyanın bütün seçkilərdə uğur qazanmasını təmin edib. Cənab İlham Əliyevin prezidentliyi dövründə bu proses daha geniş miqyas alıb.

Bir il öncə, martın 5-də keçirilən VII qurultayda isə qüdrətli liderimiz partiya qarşısına yeni vəzifələr qoydu. Partiya Sədrimiz, Prezident İlham Əliyev həmişəki kimi geniş, dərin məzmunlu və proqram xarakterli çıxışı ilə əldə edilən uğurları, aparılan hərtərəfli islahatları yüksək dəyərləndirdi və gələcək fəaliyyətlə bağlı istiqamətləri, konturları göstərdi. Azərbaycanın genişmiqyaslı islahatlar aparan ölkə olduğunu bildirən Prezident öncə son 3 il ərzində həyata keçirilən mütərəqqi islahatları yüksək qiymətləndirərək partiyanın VII qurultayının keçirilməsi zərurətini yaranmış yeni reallıqların tələbi kimi dəyərləndirdi. Partiyamızın Sədri YAP üzvləri qarşısında yeni vəzifələr müəyyənləşdirdi. Yeni üzvlər partiyanın bundan sonra da ölkənin aparıcı siyasi qüvvəsi olaraq qalması üçün fəallıq göstərməli, partiyanın fəaliyyətində mühüm rol oynamalı, ümumi işlərə töhfə verməlidirlər.

Hakim partiyanın budəfəki ali toplantısı həm də vacib qərarların qəbul edilməsi ilə yadda qaldı. Partiyanın yeni Nizamnaməsi qəbul olundu, 40 nəfərdən ibarət tərkibdə İdarə Heyəti seçildi, 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar verildi. Bununla da ölkənin siyasi həyatında tamamilə yeni bir strategiyanın əsası qoyuldu.

Ümumiyyətlə, hər bir siyasi təşkilat mütəmadi olaraq yenilənməli, ideoloji prinsiplərini müasir dövrün tələblərinə uyğunlaşdırmalı, funksional və struktur islahatları baxımından dövrün çağırışlarına cavab verməlidir. Bu baxımdan, YAP-ın VII Qurultayında vacib qərarların qəbul edilməsi, yeni Nizamnamənin təsdiqlənməsi, partiya rəhbərliyində baş verən dəyişikliklər, yeniliklər də təşkilati nöqteyi-nəzərdən böyük önəm daşıyıb.

Xüsusilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini təyin edilməsi onun dövlət başçısı İlham Əliyevlə birlikdə Azərbaycana daha möhtəşəm uğurlar qazandırmasına əsaslanır. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycan dövlətinin, dövlətçiliyinin inkişafına, qarşıdakı illər üçün müəyyənləşdirilən hədəflərin gerçəkləşdirilməsinə davamlı töhfələrində öz aydın ifadəsini tapıb.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov “Azərbaycan” qəzetinə müsahibəsində vurğulayıb ki, YAP-ın VII Qurultayı Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu: “Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Müasir, müstəqil Azərbaycanın tərəqqisi, möhtəşəm tarixi nailiyyətlər qazanaraq güclü - qüdrətli dövlətə çevrilməsi Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır. Ulu Öndərin siyasi mirası olan YAP ötən 30 il ərzində nümunəvi, zəngin və şərəfli inkişaf yolu keçmişdir. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, çox mühüm tarixi təşəbbüslərə və müvəffəqiyyətlərə imza atmışdır. Bu gün sıralarında 800 minə yaxın vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən partiyamızın bütün seçkilərdə möhtəşəm qələbə qazanaraq, sözün əsl mənasında, qələbələr partiyasına çevrilməsi və Azərbaycana qalib dövlət imici qazandırması da bu reallığın təsdiqidir. YAP qalib xalqımızın zəfər partiyasıdır”.

Qurultaydan sonra partiyanın rayon təşkilatlarının yenidən təşkilatlanması da onu göstərdi ki, ləngimə yoxdur, partiya dinamik inkişaf edir. Təşkilatlanma prosesi müxtəlif istiqamətlər üzrə aparılır. Burada, ilk növbədə partiyanın Sədri tərəfindən müəyyən olunmuş yeni yanaşmalar əsasında çıxış edərək YAP-ın fəaliyyətinin institusional əsaslarının, normativ hüquqi bazasının formalaşdırılması istiqamətində işlər görülür.

YAP öz potensialını Prezident İlham Əliyevin islahatlarına, onun inkişaf dinamikasına uyğunlaşdırır və qurultaydan sonra baş verən proseslər onu deməyə əsas verir ki, partiyada yeni canlanma başlayıb.

Əminliklə deyə bilərik ki, partiyamız bundan sonra da Azərbaycanın əldə etdiyi uğurların lokomotivi olacaq və hər zaman Cənubi Qafqazın ən böyük siyasi gücü kimi qalacaq.

***Həbib MİSİROV,***
***YAP Kəlbəcər Rayon***
***Təşkilatının sədri***

# Tarixin ən qüdrətli Azərbaycanının siyasi istinadgahı

YAP cəmiyyətin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirən ümumxalq partiyası, ölkə daxilində ictimai-siyasi münasibətlərin inkişafında, Azərbaycanın tərəqqisində mühüm rol oynayan aparıcı qüvvədir.

Ümummilli Lider Heydər Əliyev milli dövlətçiliyimizin tarixi yaddaşıdır. Ulu Öndər siyasi hakimiyyətinin Naxçıvan mərhələsində milli mənlik, milli kimlik tariximizdə atdığı cəsarətli üç addım, üç müqəddəslik hər bir azərbaycanlı üçün qiymətlidir: Azərbaycan Bayrağının dövlət rəmzi olaraq Naxçıvan Ali Məclisində qaldırılması, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi və Yeni Azərbaycan Partiyasının yaradılması.

Xalqımızın birliyinə, bütövlüyünə hesablanan bu müdrik qərarlar çoxmillətli məmləkətimizi məhz bir bayraq altında - Yeni Azərbaycan Partiyasının ətrafında birləşdirdi. Bu gün 800 minə yaxın vətəndaşımızın Yeni Azərbaycan Partiyası ətrafında Azərbaycan naminə əqidə, məslək birliyinə tapınması, siyasi həmrəyliyə gəlməsi, dünyaya səpələnən 60 milyona yaxın soydaşımızın Azərbaycanı doğma diyarı, ana Vətəni kimi sevməsi məhz həmin müqəddəs amalla bağlıdır.

1990-cı illərin əvvəllərində gənc, müstəqil Azərbaycanda AXC-Müsavat cütlüyünün səriştəsiz iqtidarı dövründə xalqın həyata, sabaha inamı yox idi, xaos, böhran hökm sürürdü. Ölkə tamamilə idarəolunmaz vəziyyətdə idi. Bizi o çətin zamandan illər ayırır. Xalqın çağırışı ilə Bakıya gələn Ulu Öndər Heydər Əliyevin dövlətçilik təcrübəsi Azərbaycanı bu xaosdan xilas etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalı Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən konfransda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi.

Ümummilli Liderin “Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur” - sözləri Azərbaycan xalqı üçün ümid yeri oldu. Sirr deyil ki, yarandığı gündən YAP-ın Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiya 30 ilə yaxın müddətdə öz məqsədlərinə uyğun fəaliyyət göstərir.

1993-cü il oktyabrın 3-də YAP-ın Sədri Heydər Əliyevin prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyulmuşdur. YAP-ın statusu yeni şəraitə uyğun olaraq dəyişmiş, ölkənin siyasi həyatında onun tutduğu mövqe möhkəmlənmiş, partiya kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirmişdir. 1995-ci ilin noyabrın 12-də keçirilən parlament seçkilərində Milli Məclisə seçilən deputatların əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvləri olduğundan ona olan ümumxalq inamı bir daha artmışdır. Sonrakı dövrlərdə də keçirilən bütün seçkilərin şəriksiz qalibi məhz YAP və onun təmsilçiləri olublar.

Hər bir qurultayı ölkəmizin ictimai-siyasi həyatında böyük hadisə kimi yaddaqalan Yeni Azərbaycan Partiyasının 2021-ci il mart ayının 5-də baş tutan son qurultayı cəmiyyətimizdəki yeniliklər, bütün sahələrdə həyata keçirilən islahatlar fonunda reallaşdı. Yeni Azərbaycan Partiyasının VII Qurultayında möhtərəm Sədrimiz İlham Əliyevin proqram xarakterli, müasir dövrün, 44 günlük İkinci Qarabağ müharibəsində qələbimizin yaratdığı yeni reallıqları özündə əks etdirən nitqi bütün partiya üzvləri üçün yeni vəzifələr müəyyənləşdirdi. Eyni zamanda qarşıya yeni vəzifələr qoydu, partiya daxilində çox ciddi islahatlar baş verdi, gənclərə yüksək etimad göstərildi. Ulu Öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin və onun rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi, bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir.

Qurultayda digər çox vacib məqam Birinci vitse-prezident Mehriban xanım Əliyevanın YAP-da Sədrin birinci müavin seçilməsidir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini kimi fəaliyyəti YAP-ın nüfuzunun və gücünün, Yeni Azərbaycan Partiyasına ictimai dəstəyin daha da artması baxımından mühüm əhəmiyyətə malik oldu. Mehriban xanım Əliyeva ötən müddət ərzində milli maraqları daim üstün tutaraq xalqa və dövlətə ləyaqətlə xidmət edib, vətəndaş məmnunluğunun artmasına, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən mühüm təşəbbüslərlə çıxış edib, xüsusilə də sosial məsələlərin həllinə yüksək diqqət göstərib. Ona görə də Mehriban xanım Əliyevanın birinci müavin təyin edilməsi yeni mərhələdə YAP-ın inkişafına təkan verərək partiyamızın və ölkəmizin yeni nailiyyətlər əldə etməsində mühüm əhəmiyyətə malik oldu. Dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində görülən işlərin, atılan uğurlu addımların nəticələri yalnız Azərbaycanın deyil, eyni zamanda Yeni Azərbaycan Partiyasının həyatında da özünü aydın şəkildə göstərir.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun “Azərbaycan” qəzetinə müsahibəsindəki bu fikirləri 800 minə yaxın siyasi həmfikrimizin ortaq rəyidir: “Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə çoxsaylı nailiyyətlərə imza atan Yeni Azərbaycan Partiyası yeni mərhələdə - bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə, şərəflə yerinə yetirməklə milli tərəqqiyə mühüm töhfələr verəcəkdir. Çünki YAP, Ümummilli Liderimizin dediyi kimi, dünənin, bu günün və sabahın partiyasıdır. Dünən Azərbaycan xalqının, dövlətinin ictimai-siyasi məsuliyyətini öz üzərinə götürən Ümummilli Liderin ətrafında yaranmış, bu gün qalib xalqın lideri, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən YAP sabah da taleyüklü məsələlərin həllində və tarixi məsuliyyət anlarında öz sözünü deyəcək - ümumxalq partiyası olduğunu hər zaman təsdiqləyəcək!”

Yeni Azərbaycan Partiyası yeniliklərə, təkmilləşməyə açıq partiyadır. Yeni Azərbaycan Partiyası yeni nəfəs, yeni sima ilə gələcəyə doğru irəliləyir. Bu əminliyə əsas verən 30 illik yol və bu yolun uğurlarına söykənərək müəyyənləşdirilən hədəflərdir. Bu şanlı qələbəni bizə bəxş edən isə partiyamızın lideri cənab İlham Əliyevdir. Məhz buna görə bütün Azərbaycan vətəndaşları kimi, partiyamızın üzvləri də böyük fəxrlə deyir: “Qalib ölkənin qələbələr partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!”

***Aygül BAĞIROVA,***
***YAP Gənclər Birliyinin fəalı***

# BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Ağdama səfər edib





BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru Maimuna Mohd Şərifin başçılıq etdiyi nümayəndə heyəti işğaldan azad olunmuş Ağdam şəhərinə səfər edib.










Qonaqlar səfər zamanı Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklərlə, eləcə də şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri ilə tanış olublar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Maimuna Mohd Şərif və digər qonaqlar əvvəlcə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinə gəliblər. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qonaqlara Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilər, o cümlədən Ağdam şəhəri, həyata keçirilən tikinti-quruculuq işləri, layihələr barədə məlumat verib.

Sonra Ağdam Şəhidlər xiyabanına gələn qonaqlara məlumat verilib ki, burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qəbri də buradadır. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Nümayəndə heyəti səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın fevralın 13-də Ağdama səfəri zamanı təməli qoyulan yeni yaşayış kompleksinin ərazisində həyata keçirilən tikinti işləri ilə tanış olublar.

Maimuna Mohd Şərif və digər qonaqlar İmarət kompleksi, Dram teatrının qalıqları, Cümə məscidi və Şahbulaq qalasında da olub, erməni vandalizminin izlərinə baxıblar. Məlumat verilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizmi ilə üzləşib.




Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov jurnalistlərə müsahibəsində deyib: "Bu gün BMT Baş katibinin müavini, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) İcraçı direktoru Maimuna Mohd Şərifi və onu müşayiət edən nümayəndə heyətini Ağdam şəhəri, burada törədilmiş urbisidin bariz nümunələri ilə tanış elədik. Qonaqlar Ağdam və işğaldan azad olunmuş digər ərazilərdə aparılan bərpa-quruculuq işləri ilə də tanış oldular. Azərbaycan hökumətinin bərpa prosesinə yanaşmasını və idarəetmə mexanizmini izah etdik. Eləcə də bu təşkilatların Azərbaycan təcrübəsindən bəhrələnə biləcəkləri məsələlər haqda fikir mübadiləsi apardıq. Ümid edirəm ki, qonaqların bu səfəri faydalı olacaq. Əlbəttə ki, bu torpaqlarda 30 il ərzində törədilmiş vandalizm faktları danılmazdır. Amma eyni zamanda biz gələcəyə baxmalıyıq. Cənab Prezidentin rəhbərliyi ilə dövlətimiz bu torpaqlarda gözəl şəhərlər, kəndlər, qəsəbələr quracaq. Bütün bunların məqsədi vətəndaşlarımızın tez bir zamanda dədə-baba torpaqlarına qayıtmasıdır. Məqsədimiz odur ki, Qarabağa həyat qayıtsın. Bu, artıq başlayıb və beynəlxalq təşkilatlar da buna şahidlik edirlər".

# Partlayıcı sursatların təhlükəsinə dair növbəti maarifləndirmə tədbiri 21 nömrəli tam orta məktəbdə keçirilib



Martın 4-də Təhsil Nazirliyinin və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) birgə təşkilatçılığı ilə "Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə" (PSTM) tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, Laçın rayonu 21 nömrəli tam orta məktəbdə keçirilən tədbirin məqsədi işğaldan azad edilmiş rayonlara köçürüləcək şagirdlərin mina və partlayıcı sursatların təhlükəsi barədə biliklərinin artırılması olub.

Tədbirdə təhsil naziri Emin Əmrullayev, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov, Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aleks Haykens, Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev və digər qonaqlar iştirak ediblər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Vətənimizin azadlığı və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən təhsil naziri Emin Əmrullayev təhsil müəssisələrinin müəllim-şagird (tələbə) heyətinin partlayış təhlükəsinə qarşı maarifləndirilməsi barədə metodiki tövsiyələrin hazırlandığını qeyd edib. Nazir bildirib ki, metodiki tövsiyələrə uyğun olaraq, məktəblərdə mina təhlükəsi, onun fəsadları barədə şagirdlərlə mütəmadi qaydada maarifləndirici tədbirlər həyata keçirilir. Bu tədbirlərin baş verə biləcək təhlükələrin qarşısının alınması baxımından əhəmiyyəti böyükdür.

Həmçinin qeyd olunub ki, əvvəlki illərdə olduğu kimi, cari tədris ilində də Füzuli, Beyləqan, Ağcabədi, Ağdam, Tərtər, Goranboy, Xocavənd, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Qazax, Ağstafa, Kəlbəcər, Laçın, Cəbrayıl, Şuşa, Qubadlı, Xocalı və Zəngilan rayonlarının bütün ümumtəhsil müəssisələrinin, habelə Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhəddə yerləşmiş ümumtəhsil müəssisələrinin VI siniflərində dərsdənkənar məşğələlərə ayrılmış vaxt hesabına həftədə bir saat olmaqla ikinci yarımildə "Mina təhlükəsinə dair maariflənmə" adlı kursun tədrisi aparılır.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov mina təhlükəsi ilə mübarizə proqramının əsas komponentlərindən olan "Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə" proqramının fəaliyyət istiqamətləri barədə məlumat verib. Bildirib ki, ANAMA tərəfindən fəaliyyət çərçivəsində ümumi maarifləndirmə, təlimçilərin təlimi, icma PSTM və məktəblərdə maarifləndirmə tədbirləri həyata keçirilir.

ANAMA-nın İdarə Heyətinin sədri tədbirdə iştirak edən şagirdlərə müraciət edərək mina riskindən qorunmaq üçün şübhəli ərazilərə daxil olmamaq, müharibənin partlayıcı qalıqlarına toxunmamaq, eləcə də baş verə biləcək bədbəxt hadisələrin qarşısını almaq məqsədilə naməlum əşyalara rast gəldikdə 102 və 112 Qaynar telefon xətlərinə məlumat verilməsinin vacibliyini bildirib.

Yeni Azərbaycan Partiyasının Sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın dilbər guşələrindən olan doğma Qarabağımızın 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun qazandığı parlaq Qələbə nəticəsində otuz ilə yaxın davam edən işğaldan azad olunduğunu xatırladıb. Tahir Budaqov bildirib ki, işğalçı Ermənistan otuz il ərzində əzəli torpaqlarımızı viran qoymaqla yanaşı, həmin əraziləri mina və digər hərbi sursatlarla çirkləndirib. İşğaldan azad olunan ərazilərdə hazırda minatəmizləmə əməliyyatlarının fasiləsiz davam etdirildiyini vurğulayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri diqqətə çatdırıb ki, dəfələrlə olunan xəbərdarlıqlara baxmayaraq, vətəndaşlarımız hələ də bu ərazilərə qanunsuz səfərlər etməyə cəhd göstərirlər.

Həmin ərazilərdə baş verən mina və partlamamış hərbi sursat hadisəsi nəticəsində bir neçə vətəndaşımızın həlak olduğunu və yaralandığını vurğulayan Tahir Budaqov bildirib ki, bu baxımdan belə maarifləndirmə tədbirlərinin keçirilməsi çox əhəmiyyətlidir. Bu tədbirin də məqsədi məktəblərdə "Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə" proqramının fəaliyyətinin əsas məqsədi müharibədən zərərçəkmiş icmalarda məktəblilərin, eləcə də valideynlərin mina və partlamamış hərbi sursatlara dair biliklərinin artırılmasının təmin edilməsindən ibarətdir.

Mərasimdə müxtəlif növ mina və partlamamış hərbi sursatların vizual tanınması məqsədilə maketlərdən ibarət nümayiş guşəsi də təşkil edilib.

Tədbir çərçivəsində ANAMA-nın fəaliyyətinə dair sosial çarx və təhlükəli ərazilərin əlamətləri, mina xəbərdaredici işarələrin tanınmasını əks etdirən animasiya nümayiş etdirilib.

Həmçinin məktəb şagirdləri tərəfindən partlayıcı sursatların təhlükəsi barədə maarifləndirici səhnəcik təqdim edilib.

# Azərbaycan neftinin qiyməti yüksəlir

## Bu, ölkəmizin strateji valyuta ehtiyatlarını artıracaq, iqtisadi dvidendlər gətirəcək



*Əvvəli 1-ci səh.*

### Valyuta ehtiyatılarımız 55 milyard dollara qədər yüksələ bilər

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin deputatı Vüqar Bayramov bildirir ki, neftin qiymətindəki artım Azərbaycan iqtisadiyyatı, eyni zamanda dövlət büdcəsinin gəlirlərinin artırılması baxımından vacibdir: "Digər tərəfdən, neftin qiymətindəki artım həm dövlət büdcəsinə daxilolmaları təmin edir, həm də Dövlət Neft Fondunun aktivlərinin, bütövlükdə Azərbaycanın strateji valyuta ehtiyatlarının artmasına gətirib çıxarır. Hazırda Azərbaycanın strateji valyuta ehtiyatları 53 milyard dollardır. Neftin qiymətindəki artım davam edəcəyi halda valyuta ehtiyatlarımızın yaxın zamanlarda 55 milyard dollara qədər yüksəlməsi proqnozlaşdırılır".

Vüqar Bayramovun sözlərinə görə, valyuta ehtiyatları və ölkəyə daxil olan valyuta həcminin artması makroiqtisadi sabitliyin qorunması üçün vacibdir. Çünki Azərbaycan ixracatının 80 faizə qədərini neft və neft məhsulları təşkil edir. Belə ki, ölkəmiz gündəlik olaraq 700 min bareldən artıq neft hasil edir. 2021-ci ildə orta hesabla gündəlik neft ixracatı 425 min barel olub. Dünya neft bazarında qiymət artımı Azərbaycana daha çox valyutanın daxil olması və xarici valyutaya olan tələbin ödənməsi baxımından vacibdir: "Builki dövlət büdcəsi müstəqillik dövrünün ən böyük maliyyə sənədidir. Dövlət büdcəsinin gəlirlərinin təxminən 14 milyard manatının məhz neft sektoru hesabına formalaşması nəzərdə tutulur. Neftin qiymətinin yüksəlməsi gəlirlərə və büdcə qarşısında öhdəliklərin yerinə yetirilməsinə imkan verəcək".

Deputat deyir ki, qiymət artımı həmçinin Dövlət Neft Fondunun aktivlərinin artmasına səbəb olacaq. Çünki dövlət büdcəsində 1 barel neftin qiyməti 50 dollar nəzərdə tutulub. Hazırda dünya bazarında neftin qiymətinin yüksək olması, Dövlət Neft Fonduna daha çox vəsaitin daxil olmaısına şərait yaradır. Bu da valyuta aktivlərinin artması baxımından arzuolunandır.

Deputatın fikrincə, hazırda neftin qiymətinə təsir göstərən əsas faktor Rusiya-Ukrayna müharibəsidir: "Pandemiyanın yumşalması neftin qiymətinin 90 dollara qədər yüksəlməsinə gətirib çıxarmışdı. Rusiyanın dünyanın aparıcı neft hasil edən ölkələrindən biri olduğunu nəzərə alsaq, müharibə neft bazarına birbaşa təsir göstərdi. Rusiyanın gündəlik neft hasilatı 12 milyon barelə yaxındır. Rusiya dünyada ən çox neft hasil edən üç ölkədən biridir. Bu baxımdan müharibə neft bazarına siyasi və psixoloji təsir göstərir. Növbəti dövrdə neft qiymətlərinin dəyişməsi birbaşa müharibənin hansı müddəti əhatə etməsindən, sanksiyaların dairəsindən asılı olacaq. Sanksiyalar neft sektorunu əhatə edərsə, biz qiymətlərin növbəti mərhələdə də artmasını müşahidə edə bilərik. Müharibə başa çatdıqdan sonra sanksiyalar genişlənməzsə, o zaman neftin qiymətinin yenidən 80-90 dollar intervalına qədər düşməsi mümkündür. Mövcud vəziyyət neftin dünya bazarındakı qiymətinin hələ ki yüksək səviyyədə qalacağından xəbər verir".

### Neftin qiymətinin 150 dollara kimi qalxması gözlənilir

Ekspert İlham Şaban deyir ki, Azərbaycanın dövlət büdcəsinin, eləcə də ümumi ixracının 88 faizindən çoxu enerji daşıyıcılarının payına düşür. Neftin qiymətinin bahalaşması həm dövlət büdcəsinin gəlirlərinin, həm də valyuta ehtiyatlarının artımasına səbəb olur: "2022-ci ilin dövlət büdcəsində neftin qiyməti 50 ABŞ dolları nəzərdə tutulub. Neftin qiymətinin bahalaşması nəticəsində Azərbaycan neftinin təxminən 70 faiz artımla satıldığı halda isə dövlət büdcəsinə daxil olan gəlirlər də çoxalacaq".

Ekspert bildirir ki, dünya bazarında Azərbaycan neftinin qiymətinin artması Rusiya-Ukrayna müharibəsinin təzahürüdür: "Neftin qiymətinin qalxması müharibənin özündə ehtiva etdiyi risklərdir. Neft bazarında təlatüm yaradan məhz müharibədir. Biz müharibənin bundan sonra hansı istiqamətdə gedəcəyini bilmirik. Müharibə davam edəcək, yoxsa masa arxasında razılığa gəlinəcək və yaxud hərbi əməliyyatların başladığı kimi dayandırıldığı bildiriləcək. Bunu heç kəs proqnozlaşdıra bilmir. Əgər müharibə dayansa, Azərbaycan neftinin qiyməti birdən-birə 90-80 dollara düşəcək, amma neftin qiyməti 150 dollara kimi qalxa da bilər. Bu, müharibənin gedişindən asılıdır. Müharibə zamanı proqnoz vermək olmur".

Səslənən fikirlərə əsasən deyə bilərik ki, Rusiya-Ukrayna müharibəsi birbaşa olaraq neftin qiymətinə təsir göstərir. Proqnozlar göstərir ki, müharibə davam edəcəyi halda dünya bazarında neftin qiyməti artmaqda davam edəcək. Bu isə Azərbaycana əlavə iqtisadi dvidendlər qazandıracaq.

***Əsmər QARDAŞXANOVA***

# Müstəqil siyasətin real mənzərəsi

*Əvvəli 1-ci səh.*

Vətən müharibəsi nəticəsində yaranmış yeni reallıq Azərbaycanın regional mövqeyinin möhkəmləndirilməsini və beynəlxalq münasibətlər sistemindəki rolunun daha da artmasını şərtləndirib. Yəni İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu bir qədər də möhkəmləndirmiş oldu. İndi qalib ölkə kimi Azərbaycan qaydaları özü müəyyənləşdirir, tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təkliflərini ortaya qoyur. Bütün görüş və çıxışlarında, müsahibələrində regionda yaranan qarşılıqlı faydalı əməkdaşlıq imkanlarından söz açan İlham Əliyev yeni reallıqların çoxşaxəli münasibətlərin daha dinamik inkişafına xidmət göstərdiyini bəyan edir.

Əlbəttə ki, əməkdaşlıq formatının regional təhlükəsizlik üçün böyük əhəmiyyəti var. Qonşu ölkələrlə uğurlu tərəfdaşlıq ilk növbədə regionda sabitliyin, təhlükəsizliyin təmin edilməsində çox mühüm rol oynayır. Vətən müharibəsindən sonra isə regionda yeni əməkdaşlıq platformasının yaradılması təklifinin də reallaşmaq üzrə olması onu deməyə əsas verir ki, tezliklə yaranacaq "3+3" formatı Cənubi Qafqazda sabitliyin əsas təminatçısı olacaq.

Real vəziyyətin təhlili göstərir ki, "3+3" formatına maraq artır, xüsusən də Rusiya və İran bu çərçivədə əməkdaşlıq münasibətlərinin qurulmasının sürətlənməsini istəyir. Rusiya tərəfindən böyük dəstək alan formatı Tehran da birmənalı olaraq qəbul edir.

Ümumiyyətlə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla, Prezident İlham Əliyevin təşəbbüsü olan "3+3" platformasının əsas məqsədi Cənubi Qafqazı ziddiyyətlər regionundan ticari-iqtisadi əməkdaşlıq məkanına, Avrasiyanın nəqliyyat mərkəzinə çevirməkdən ibarətdir. Hazırda Cənubi Qafqazın ən çox ehtiyac duyduğu məsələ təhlükəsizliyin təminatından və iqtisadi əlaqələrin genişləndirilməsindən ibarətdir. Bu formatın reallaşdırılması regionun təhlükəsizliyi baxımından da vacib əhəmiyyət daşıyır. Məlumdur ki, regionda uzun müddət davam edən münaqişə iqtisadi, nəqliyyat və logistika əlaqələrinin qurulmasına imkan verməyib.

Amma Azərbaycanın Qarabağ zəfəri vəziyyəti dəyişib. Bu qələbədən sonra, xüsusən Ermənistan üzərindən Zəngəzur dəhlizinin fəaliyyətə başlaması, bunun üçün zəruri infrastruktun yaradılması, Azərbaycan ərazisindən keçəcək "Şimal-Cənub" layihəsinin reallaşdırılması kimi addımlar Qafqaz regionunun qlobal nəqliyyat və logistika sahəsində beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət edəcək. Bu da son nəticədə regionda hər üç ölkəyə ciddi dividendlər qazandıracaq. Türkiyə, Rusiya, İran kimi ölkələr də bundan əhəmiyyətli dərəcədə faydalanmaq imkanı qazanacaqlar. Bu isə onu göstərir ki, "3+3" formatı kommunikasiyaların bərpa edilməsi və vahid Cənubi Qafqaz iqtisadi məkanının yaradılması üçün real variantdır. Ən əsası "3+3" formatlı regional əməkdaşlıq platformasının işə salınması Cənubi Qafqazın iqtisadi inkişafına güclü təkan verəcək.

Göründüyü kimi, bütün bunlar İlham Əliyevin yürütdüyü siyasətin real təzahürüdür. Azərbaycan Prezidenti hər zaman bölgədə sülhün bərqərar olması üçün hər cür təklifə açıq olduğunu bildirir və bu istiqamətdə önəmli qərarlar qəbul edir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Əhalinin məşğulluğu təmin edilir, gəlirləri artır

### Keçən il ölkədə 69 min yeni iş yeri açılıb

Ölkəmizdə həyata keçirilən sosial islahatlar çoxyönlü olsa da, məqsəd Azərbaycan vətəndaşının rifahını yaxşılaşdırmaqdır. Bu yöndə pensiya, təqaüd və sosial müavinətlər ildən-ilə artırılır, eyni zamanda məşğulluğun təmin olunması ilə əhalinin gəlirlərinin artırılması üçün geniş tədbirlər görülür.

Təsadüfi deyil ki, cari ildə icra edilən sosial dəstək paketi ölkə əhalisinin 48 faizini və ya 4,8 milyon nəfəri əhatə edir. Bu, əsasən, əhalinin pensiya, təqaüd, sosial müavinət alan kateqoriyasına aiddir.

Təcrübə göstərir ki, əhalinin sosial müdafiəsinin ən etibarlı forması məşğulluğun təmin olunmasıdır. Çünki işləyən və yüksək gəlir əldə edən vətəndaşın digər sosial dəstəyə ehtiyacı qalmır. Odur ki, dövlət özünüməşğulluq proqramını icra etməklə yeni iş yerləri açır və vətəndaşlara gəlir əldə etmək imkanı yaradır.

Son dövrlərdə bu məsələyə xüsusi diqqət yetirilir. Ehtiyacı olanları maliyyə və texniki vasitələrlə təmin etməklə, onlara öz kiçik bizneslərini qurmağa dəstək verilir. Özünüməşğulluq proqramında Vətən müharibəsində şəhid olanların ailə üzvlərinə və qazilərə üstünlük verilir. Bu kateqoriyadan olan insanların sosial müdafiəsi təkcə pensiya və təqaüdlərin verilməsi ilə dəstəklənmir, eyni zamanda onlara cəmiyyətə inteqrasiya olunmaq üçün işləmək imkanı da yaradılır. Bu, həm maddi, həm də mənəvi dəstək deməkdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən son məlumata görə, "Məşğulluq marafonu" layihəsi üzrə 1744 şəhid ailəsi üzvü və qazi işlə təmin olunub. Bu işdə dövlət qurumları ilə yanaşı, özəl sektor da yaxından iştirak edir. İndiyədək 618 işəgötürən tərəfindən 4203 vakansiya təqdim olunub. Xatırladaq ki, marafon "Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi ilə keçirilir.

Əhalinin məşğulluğunun artırılması istiqamətində atılan daha bir addım "Məşğulluğa dəstək layihəsi"dir. Bu layihə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Dünya Bankı tərəfindən birgə icra edilir. Hazırda "Azərbaycanda məşğulluğa dəstək" layihəsinə qoşulmaq üçün cari il üzrə müraciətlər qəbul olunur. Qeyd edək ki, bu layihə qabaqcıl beynəlxalq təcrübə əsasında özünüməşğulluq proqramının genişləndirməsinə dəstək məqsədi daşıyır. Layihənin icrası zamanı işsiz kimi qeydiyyatda olan şəhid ailəsi üzvləri, Vətən müharibəsi əlilləri, keçmiş məcburi köçkünlər, ünvanlı sosial yardım alanlar, qadınlar və gənclərə üstünlük verilir.

Dünya sürətlə dəyişir. Düzdür, XX əsr dünya tarixində inkişaf əsri kimi qalmışdır. Lakin yeni yüzilliyimiz elm və texnologiya sahəsində daha böyük zirvələri fəth etməkdədir. Bu əsrdən cəmi 22 il ötməsinə baxmayaraq, texnika və texnologiya sahəsində böyük sıçrayış baş verib. Bu da insanlardan həmin texnologiyalardan istifadə bacarığı tələb edir. Bu üzdən təkcə ölkəmizdə deyil, bütün dünyada yeni texnologiyalarla işləməyi bacaran kadrlara ehtiyac yaranıb.

Məlumdur ki, ölkəmizdə sənayenin inkişafına xüsusi diqqət yetirilir. Müasir sənaye parkları və sənaye məhəllələri fəaliyyət göstərir. Bununla yanaşı, kənd təsərrüfatı və digər sahələrdə də innovativ texnologiyaların istifadəsinə üstünlük verilir. Təsadüfi deyil ki, Dövlət Məşğulluq Agentliyi cari ildən 4 mindən çox işsizi və işaxtaranı "Peşə öyrən, işsiz qalma" layihəsinə cəlb edəcək. Peşə hazırlığı dövründə müdavimlərə minimum aylıq əməkhaqqı məbləğində təqaüd ödəniləcək və kursu uğurla bitirənlərə agentlik tərəfindən sertifikat veriləcək. Agentlik sonra həmin müdavimlərin peşə üzrə işlə təmin olunmasına kömək göstərəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Qulluq stajına görə əlavələr alan təqaüdçülərə hər ay pensiyalarının 10 faizi məbləğində maddi yardım veriləcək

### Bu məqsədlə dövlət büdcəsindən illik 86 milyon manat əlavə vəsait ayrılacaq

Prezident İlham Əliyevin yeni sərəncamı əmək pensiyasına qulluq stajına görə əlavələr alan pensiyaçılara (hərbi qulluqçular, hüquq-mühafizə orqanları əməkdaşları, dövlət qulluqçuları və b.) xüsusi qayğının növbəti təzahürü olmaqla onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daha bir addımdır.

Sərəncamla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına 2022-ci ildə aylıq pensiya məbləğlərinin (qulluq stajına görə əlavələr də nəzərə alınmaqla) 10 faizi məbləğində aylıq maddi yardım ödəyəcək.

Maddi yardım 2022-ci ilin 1 yanvarından hesablanmaqla hər ay onların pensiyasının məbləği ilə birgə ödənəcək. Yanvar və fevral ayları üzrə maddi yardımlar onlara mart ayının pensiyası ilə birgə veriləcək.

Qeyd olunan maddi yardım vəfat etmiş hərbi və xüsusi rütbəli şəxslərin, dövlət qulluqçularının, məhkəmə hakimlərinin və s. qulluq stajına görə əlavə almaq hüququ olmuş şəxslərin ailə başçısını itirməyə görə pensiya alan ailə üzvlərinə də şamil edilir.

Sərəncama əsasən, Nazirlər Kabineti qeyd olunan maddi yardımın 2023-cü il yanvarın 1-dən həmin pensiyaçıların pensiyalarının tərkibinə daxil edilməsinə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək.

Qulluq stajına görə əlavələr alan pensiyaçılara bu il üzrə pensiyalarının 10 faizi məbləğində maddi yardım verilməsi üçün dövlət büdcəsindən illik 86 milyon manat əlavə vəsait ayrılacaq. Bu maddi yardım müvafiq kateqoriyadan olan 100 min pensiyaçını əhatə edir.

Sərəncam bu ilin əvvəlindən ölkədə reallaşdırılan yeni sosial islahatların davamı olmaqla pensiyaların artırılmasında daha bir irəliləyişi təmin edir.

Cari ilin əvvəlindən sosial ödənişlər növbəti dəfə artırılmaqla, minimum pensiya da 20 faiz artımla 200 manatdan 240 manata çatdırılıb. Habelə pensiyalar orta aylıq əməkhaqqı artımına uyğun indeksləşdirilərək artırılıb və pensiyaçılara bu il üzrə maddi yardım (200 manat) ayrılıb.

Ümumilikdə 2022-ci il üzrə əməkhaqqı, pensiya və digər sosial ödənişlərin artımını nəzərdə tutan islahatlar paketi 3,4 milyon şəxsi əhatə edir. Bu artımlar üçün ayrılan illik əlavə vəsait 2,1 mlrd. manat təşkil edir.

## Türkiyə və Azərbaycan KOB-un inkişafı sahəsində əməkdaşlıq edəcək

İqtisadi İslahatların Təhlili və Kommunikasiya (İİTKM) Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı Türkiyənin KOSGEB təşkilatının İdarə Heyəti sədrinin müavini Salih Tuna Şahinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, Vüsal Qasımlı Azərbaycanda yaradılmış əlverişli biznes mühiti şəraitində kiçik və orta sahibkarlığın inkişafı üçün görülən işlər barədə məlumat verib.

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin 2016-2021-ci illərdə 88 faiz icra olunduğu qeyd edilib.

KOBİA, "EnterpriseAzerbaijan.com", "Azexport", KOB evləri kimi institutsional islahatlara bərabər maliyyə-kredit, sığorta, vergi, gömrük və dövlət satınalmaları sahəsində kiçik və orta biznesə verilən dəstək müzakirə olunub.

Görüşdə Türkiyə və Azərbaycan arasında kiçik və orta biznesin dəstəklənməsi sahəsində birgə layihələr barədə də fikir mübadiləsi aparılıb.

Salih Tuna Şahin, həmçinin İİTKM-in nəzdində fəaliyyət göstərən "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində sahibkarlara yaradılan şəraitlə də tanış olub.

## Naftalanda sahibkarlara geniş meydan var

Naftalan Şəhər İcra Hakimiyyəti və Dövlət Məşğulluq Agentliyinin 18 saylı Ərazi Məşğulluq Mərkəzinin birgə təşkilatçılığı ilə Naftalan şəhərində fəaliyyət göstərən sahibkarlarla görüş keçirilmişdir.

Tədbirdə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşlarının stimullaşdırılması istiqamətində görülən işlərdən danışılmışdır. Qeyd edilmişdir ki, dövlət başçısı tərəfindən bu sahədə imzalanmış sərəncamlar, eləcə də sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi iş adamlarına geniş imkanlar yaratmışdır.

Görüşdə 18 saylı Ərazi Məşğulluq Mərkəzinin nümayəndələri agentliyin fəaliyyət istiqamətləri, işəgötürənlərlə əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verdikdən sonra işaxtaran şəxslərin məşğulluğunun təmin edilməsi məqsədilə birgə layihələrin həyata keçirilməsi, eləcə də əməkdaşlıq perspektivləri müzakirə edilmiş və fikir mübadiləsi aparılmışdır.

Sahibkarlar ölkəmizdə onların fəaliyyəti üçün yaradılan şəraitdən razı qaldıqlarını bildirmiş, "məşğulluq marafonu", "əməkhaqqının birgə maliyyələşdirilməsi proqramı", "peşə hazırlığı" və digər istiqamətlərdə əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırmışlar.

## Ətraf mühitin mühafizəsinə diqqət artırılır

Şəmkir Rayon İcra Hakimiyyətində 2 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi, Gigiyena və Epidemiologiya Mərkəzi, inzibati ərazi dairəsi üzrə nümayəndələrin və bələdiyyələrin iştirakı ilə ətraf mühitin mühafizəsi və təmizliyi, məişət tullantılarının zərərsizləşdirilməsi və bu sahədə maarifləndirmə işlərinin yaxşılaşdırılması mövzusunda tədbir keçirilmişdir.

Tədbirdə qeyd olunmuşdur ki, məişət tullantısı problemi rayonda uzun müddətdir müzakirə mövzusuna çevrilib. Bu problemin böyük hissəsi Şəmkir şəhərinin mərkəzi ərazilərində artıq müşahidə edilməsə də, ətraf kənd və qəsəbələrdə özünü qabarıq şəkildə büruzə verir. Lakin məişət tullantılarının idarə olunmasının təkmilləşdirilməsi istiqamətində görülən işlər yaxın gələcəkdə bu sahədə nümunəvi şəraitin yaradılacağından xəbər verir.

Görüşdə həmçinin aidiyyəti qurumların, yerli idarəetmə orqanlarının və ictimaiyyətin bu istiqamətdə birgə fəaliyyətinin zəruriliyi və əhali arasında maarifləndirmə tədbirlərinin genişləndirilməsinin vacibliyi vurğulanıb. Bildirilib ki, bu sahədə yüksək keyfiyyətli işlər əldə etmək üçün yeni paliqonlar müəyyən edilməli və məişət tullantılarının daşınması işi günün tələblərinə uyğun qurulmalıdır.

Sonda qaldırılan məsələlər ətrafında müzakirələr aparılıb, nümayəndə və bələdiyyələri maraqlandıran suallar cavablandırılmışdır.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## İlin əvvəlində Neft Fondu "Şahdəniz" qazı və kondensatının satışından 227,5 milyon dollardan çox gəlir əldə edib

Cari ilin yanvar-fevral aylarında Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) "Şahdəniz" yatağı üzrə təbii qaz və kondensat satışından əldə etdiyi gəlirlər 227 milyon 557 min ABŞ dolları olub.

Bu barədə ARDNF-in İctimaiyyətlə əlaqələr departamentindən bildirilib. Qeyd olunub ki, o cümlədən iki ayda Neft Fondunun "Şahdəniz" yatağı üzrə kondensatın satışından gəlirləri 22 milyon 172 min dollar təşkil edib.



2007-ci ildən cari il martın 1-dək isə fondun "Şahdəniz" yatağı üzrə qazın və kondensatın satışından əldə olunan ümumi gəlirləri 4 milyard 779 milyon dollar olub.

## "Açıq kommunal infrastruktur proqramı II" layihəsi çərçivəsində görüş keçirilmişdir

Gəncədə "Açıq kommunal infrastruktur proqramı II" layihəsi çərçivəsində şəhər əhalisi ilə növbəti səyyar görüş keçirilmişdir.

Pandemiya qaydalarına uyğun olaraq təşkil olunan görüşdə sakinlər onları narahat edən məsələləri şəhər rəhbərliyinin diqqətinə çatdırmışlar. Müraciətlər arasında su və kanalizasiya xətlərinin çəkilişi, abad məhəllələrin yaradılması, bir sıra küçə və döngələrin asfaltlanması, bəzi ərazilərdə su təchizatının yaxşılaşdırılması, küçələrin işıqlandırılması sisteminin qurulması, işlə təminat və s. məsələlər üstünlük təşkil etmişdir. Görüşdə iştirak edən sakinlər onları rahatsız edən şəxsi problemlərini də səsləndirmişlər.

Sakinlərə məlumat verilmişdir ki, Gəncə şəhərində "Açıq kommunal infrastruktur proqramı II" layihəsi icra olunur. Layihənin həyata keçirilməsində əsas məqsəd şəhərin küçələrinin və qəsəbədaxili yolların asfaltlanması, məhəllələrin abadlaşdırılması, şəhərin su və kanalizasiya sistemlərinin yenidən qurulmasıdır. Layihə çərçivəsində mərhələli şəkildə şəhərin bütün küçələrində yeni işıq dirəklərinin quraşdırılması, bir çox ərazidə isə mövcud işıq dirəklərinin təmiri və yenilənməsi də nəzərdə tutulmuşdur.

Səsləndirilən digər problemlərin bir çoxu yerindəcə öz həllini tapmış, bəzilərinin isə araşdırılaraq qanunamüvafiq formada həlli üçün tapşırıqlar verilmişdir.

## İnzibati rayon kimi 30 yaşı olsa da...




### Samuxlular bu il də yüksək nailiyyətlər qazanmaq əzmindədirlər

Son illər regionlarımızın siması tamamilə dəyişmişdir. Kənd yolları təmir edilmiş, ən ucqar kəndlər qazlaşdırılmış, müasir rabitə sistemləri qurulmuş, bir sözlə, infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində şəhərlə kənd arasında fərq xeyli azalmışdır.

Yeni iş yerlərinin açılması isə əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Xüsusilə dövlətin aqrar sektora verdiyi dəstək bu sahədə çalışan insanlarda işgüzarlığı daha da artırmışdır.

Samuxun inzibati rayon kimi cəmi 30 yaşı var. Elə bu günlər rayon sakinləri həmin münasibətlə keçirilən yubiley tədbirində görülən işlərə nəzər salmış, onları təhlil etmişlər. Qeyd edilmişdir ki, hər ili yüksək göstəricilərlə yola salan samuxlular son bir ildə daha yüksək nailiyyətlər qazanmışlar.

Keçən il samuxlular bütün sahələr üzrə əvvəlki ilin göstəricilərini üstələmişlər. 13 min ton tərəvəz istehsal edən fermerlər hər hektardan 182,7 sentner məhsul götürmüşlər. İstehsal olunan tərəvəzin 2109 tonu kənd təsərrüfatı müəssisələrində, 10838 tonu isə fərdi təsərrüfatlarda yetişdirilmişdir. Təsərrüfatlarda həmçinin 6414 ton pomidor, 1319 ton badımcan, 1901 ton xiyar da istehsal edilmişdir.

Rayonda meyvə istehsalı da əvvəlki illərdəkindən xeyli çox olmuşdur. Hazırda Samuxda 2122,3 hektar meyvə və giləmeyvə bağı var. Bu bağların 1452 hektarı bar verəndir. Keçən il bağlardan 6 min ton meyvə və giləmeyvə yığılmışdır. Lakin rayon sakinləri bunu son hədd hesab etmirlər. Onlar cari ildə bu göstəriciləri bir qədər də artıracaqlarına əmindirlər.

Taxılçılıq samuxluların ata-baba peşəsi olduğundan bu sahəyə maraq azalmır. Keçən il 10293,9 hektardan ümumilikdə 38577 ton məhsul yığılmışdır. İstehsal olunan taxılın 22674 tonu buğda, 15903 tonu arpa olmuşdur. Hər hektardan orta hesabla 37,5 sentner məhsul götürən təsərrüfat sahibləri bu il daha yüksək məhsuldarlıq uğrunda çalışacaqlarını qarşılarına məqsəd qoymuşlar.

Keçən il rayon heyvandarlarının da uğurları çox olmuşdur. Belə ki, diri çəkidə ət istehsalı əvvəlki ilə nisbətən 0,5 faiz artaraq 5793, süd istehsalı 3,8 faiz artaraq 32546 tona çatmışdır.

Hazırda rayonda cari ilin məhsulları üçün zəmin yaradılır. Son məlumata görə, rayon üzrə 14295,7 hektarda şum qaldırılmış, həmin sahələrdə 11420,7 hektar payızlıq səpin aparılmışdır ki, onun da 6160 hektarı buğda, 4490,7 hektarı arpa, 770 hektarı xəsildir.

Əsasən kənd təsərrüfatı rayonu olan Samuxda əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilir. Təkcə keçən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən rayon sahibkarlarına 8 layihə üzrə 185 min manat güzəştli kredit verilmişdir ki, bunun da hesabına 200-dək yeni iş yeri açılmışdır.

Bundan başqa, "DOST İş Mərkəzi" MMC vasitəsilə 155 nəfərə ictimai işlərə göndəriş verilmişdir. Onlardan 6 nəfəri şəhid ailəsi, 1 nəfər qazidir. 279 nəfər işə düzələnin 124-ü müəssisələr tərəfindən işə götürülmüşdür. Onlardan 3 nəfəri şəhid ailəsi və 5 nəfər əlilliyi olan şəxslərdir.

Əsas tədbirlərdən biri də Azərbaycan Respublikası Prezidentinin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamının icrası ilə əlaqədar görülən işlərdir. Belə ki, bu sərəncamın icrası çərçivəsində işaxtaran vətəndaşlardan 25 nəfəri (aztəminatlı ailələrdən biznes ideyası, bacarığı olanlar seçilib təlimə cəlb edilməklə) işlə təmin edilmişdir. Onlardan 2-si şəhid ailəsinin üzvü, 1-i isə Qarabağ müharibəsi əlilidir.

Rayonda əhalinin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması istiqamətində də mühüm addımlar atılmışdır. Müxtəlif güclü 15, həmçinin Samux Rayon Suvarma Sistemləri İdarəsinin su quyularına xidmət edən 11 transformator əsaslı təmir olunmuş, rayon üzrə 105 yeni dayaq quraşdırılmış, SİP naqillərlə 2505 metr elektrik xətti çəkilmişdir.

Əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində də müəyyən işlər görülmüşdür. Hazırda 30 yaşayış məntəqəsində mavi yanacaqdan istifadə olunur ki, bu da rayon üzrə 85,7 faiz yaşayış məntəqəsinin təbii qazla təmin olunması deməkdir. Samux şəhərinin içməli suya olan tələbatının ödənilməsi üçün isə 3,24 hektar sahədə təmizləyici qurğu və 2,22 hektar sahədə su anbarı inşa edilmişdir.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri daim diqqət və qayğıkeşliklə əhatə olunmuşlar. Hazırda onlar üçün inşa olunan 9 fərdi evdə son tamamlama işləri görülür.

Təhsil sahəsi də diqqətdən kənarda qalmamışdır. "İnstitut" qəsəbəsində 960 şagirdlik tam orta məktəb binasının tikintisi başa çatdırılmış, Çobanabdallı kəndində isə 624 şagirdlik tam orta məktəb binasının tikintisinə başlanılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***






# Gənclik






**Dövlət gənclər siyasəti**



# Gələcəyin mübariz ruhlu təminatçıları

**Bu fikirlərin müəllifi olan Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra gənc nəslə diqqətin artırılması da dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Azərbaycanı gənclər ölkəsi, onları isə Azərbaycanın gələcəyi adlandıran Ulu Öndər böyüməkdə olan nəslə qayğını hər zaman önə çəkdi.**

## Ulu Öndər Heydər Əliyev: "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir"

Hüquqi və dünyəvi dövlət quruculuğu prosesində, çoxşaxəli islahatların reallaşdırıldığı bir vaxtda gənclik enerjisinə ehtiyac duyulduğunu düzgün qiymətləndirən böyük rəhbər müxtəlif illərdə gənclər siyasətinin ayrı-ayrı istiqamətləri üzrə müvafiq sənədlər imzaladı.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxdı. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, həmin tarix Azərbaycan Gəncləri Günü elan edildi. O vaxtdan etibarən Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlandı.

Gənclər hərəkatının təşkilatlanmasına dövlət dəstəyi də məhz Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından davam edir. Gənclər Forumunun təşkili Ulu Öndərin 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra başladı. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".

Azərbaycan dövlətinin başçısı İlham Əliyevin bu sahə ilə bağlı yürütdüyü siyasət nəticəsində gənclərə qayğı yeni mərhələyə qədəm qoydu. Ölkəmizdə gənc nəslin müxtəlif sahələrdəki problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli adət-ənənələrə, dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində zəruri tədbirlər reallaşdırıldı.

Dövlət başçısının 2005-ci il 30 avqust tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" dövlət gənclər siyasətinin həyata keçirilməsində mühüm fəaliyyət sənədi oldu. Həmin proqramın icrası ilə dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər, müəyyən uğurlar əldə edildi. Bu prosesin inkişafı nəticəsində yeni zərurətdən yaranan dövlət gənclər siyasəti ilə 2011-2015-ci illərdə dövlət proqramı çərçivəsində bir çox uğurlara imza atıldı.

Həmin proqram gənclərin şəxsi inkişafına, ölkə səviyyəsində geniş tərkibli işlərin aparılmasına təkan verdi. Gənclərimiz dövlət proqramı çərçivəsində bir çox yeni imkanlardan yararlandı. Gənclik Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı ölkədə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsi istiqamətində atılan növbəti mühüm addımlardan biri oldu.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin 26 iyul 2019-cu il tarixli sərəncamı ilə yüksək intellekt səviyyəsinə və idarəetmə qabiliyyətinə malik perspektivli liderlərin üzə çıxarılması və dəstəklənməsi, ölkədə kadr ehtiyatı bankının yaradılması məqsədilə təsis edilmiş "Yüksəliş" müsabiqəsi də bu istiqamətdə mühüm faktora çevrildi.

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Prezident İlham Əliyev bu günlərdə daha bir sərəncam imzaladı. Həmin sənəd dövlət başçısının "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" 2021-ci il 30 sentyabr tarixli sərəncamının icrasını təmin etmək məqsədi daşıyır.

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın əsas hədəfləri ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, Azərbaycanda yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsindən ibarətdir.

Ölkədə fəaliyyət göstərən respublika Gənclər Təşkilatının fəaliyyətinə dair hesabatda bildirilir ki, son bir il ərzində gənclər üçün 70-dən çox layihə icra edilib. Bu layihələrdən 35-i irimiqyaslı-kütləvi, 9-u isə silsilə tədbirlərdən ibarət olub. Paytaxtla yanaşı, gənclərin fəaliyyəti ölkə üzrə 44 regionu əhatə edib. Ümumilikdə 6800-dən çox gənc həyata keçirilən layihələrdən faydalanıb.

Ölkəmizdə gənclərin məşğulluğunun təmin olunması da diqqət mərkəzindədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr silsilə xarakter alıb. Bu da yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatıdır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr də Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Bu gün vətəninə sonsuz sevgi ilə bağlı olan hər bir Azərbaycan gənci Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin güclənməsi uğrunda mübarizənin ön sıralarındadır.

44 günlük Vətən müharibəsində 30 ilə yaxın mənfur və qaniçən düşmən tapdağında olan əzəli ata-baba torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan döyüşlərdə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və komandanlığı altında əldə olunan tarixi qələbəmiz də bir daha sübut etdi ki, mübariz Azərbaycan gəncliyi Vətənimizi qorumağa və bu yolda can əsirgəməməyə daim hazırdır. Qalib sərkərdəmizin qeyd etdiyi kimi, rəşadətli və şanlı Azərbaycan Ordusunun tarixi zəfəri gənclərimizin bitib-tükənməz vətənpərvərliyini, müasir dövrdə dövlətimizə və xalqımıza layiq olan dəyərli nəslin formalaşdığını bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilib. Gəncliyimiz ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atmaqdadır.

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

**Gələcəyə dəstək**

# Azərbaycanda vətənpərvər nəsil yetişib

Cəmiyyətin, dövlətin ümidlə baxdığı gələcəyi quracaq, yeni uğurlu illərə, əsrlərə aparacaq gənclər olacaq. Hər zaman onlara göstərilən diqqətdə, qayğıda, tələblərdə bu duyğular önəmli yer tutub.



Tariximizin bütün səhifələrində dövrün mühüm ictimai, siyasi, sosial, iqtisadi, mədəni hadisələrində gənclərin əhəmiyyətli rol oynadıqları barədə məlumatlar, faktlar öz əksini tapıb. Ayrı-ayrı əsrlərdə doğma millətinin haqqının, hüququnun qorunması, məmləkətinin yağı düşməndən qorunması uğrunda mübarizələrdə onlar ön sıralarda dayanıblar. Soydaşlarının gerilikdən, ətalətdən, səfalətdən qurtulmaları, tərəqqi etmiş millətlərin cərgəsində yer almaları üçün aparılan mücadilələrə qoşulmuş gənclərin gördüyü təqdirəlayiq işləri bu gün də qürurla xatırlayırıq.

Zaman keçir, nəsillər bir-birini əvəz edir. XX əsrin sonuncu onilliyində yenidən dövlət müstəqilliyini bərpa edən Azərbaycanın uğurlarında da gənclərimiz əhəmiyyətli rol oynayıblar.

Bu günümüzün gəncləri müharibə şəraitində yaşayan bir ölkədə böyüyüb, boya-başa çatıblar. Onlar ağılları kəsəndən öz vətənlərinin darda olduğunu görmüşdülər. Çünki Azərbaycanın əzəli torpaqlarının 20 faizi 1990-cı illərdə işğalçı Ermənistan tərəfindən zəbt olunmuşdu. Bir milyondan artıq soydaşımız öz evini, yurdunu erməni təcavüzkarlarının zülmləri, işğəncələri səbəbindən tərk etmək məcburiyyətində qalıb respublikamızın müxtəlif bölgələrində məskunlaşırdılar. Qaçqın statusu almış bu insanlar otuz ilə yaxın doğma ocaqlarının, evlərinin, el-obalarının həsrətini çəkdilər. Bu nisgillə, bu ağır dərdlə dünyadan köçənlər də çox oldu.

Həmin ailələrdə dünyaya gələn uşaqlar ata-baba yurdlarını görməsələr də, böyüklərin həsrəti, nisgili onlara da sirayət etdi. Ancaq yalnız onlar deyil, Azərbaycanın bütün gəncləri doğma vətən torpaqlarının bir hissəsinin qəddar və məkrli erməni quldurları tərəfindən işğal edildiyini, azərbaycanlıların zorla o ərazilərdən çıxarıldıqlarını, bəzilərinin əsir götürüldüyünü, qətlə yetirildiyini biləbək böyüdülər. Bilirdilər ki, qəhrəman babaların, ataların övladlarıdırlar. Ona görə də bu qisası qiyamətə qoymayacaqlar. Belə də oldu.

Azərbaycan dövləti, Azərbaycan xalqı heç zaman müharibə tərəfdarı olmayıb. İşğal altında olan ərazilərimizin Ermənistandan geri alınması üçün uzun illər danışıqlar aparıldı, beynəlxalq təşkilatlara müraciətlər edildi. Azərbaycan bütün beynəlxalq hüquq və prinsipləri, insani dəyərləri yüksək tutduğunu daim həyata keçirdiyi məqsədyönlü işləri, əməlləri ilə göstərdi. Ermənistan tərəfi isə hər zamankı kimi məkrli niyyətindən, qəddar əməllərindən əl çəkmədi, atəşkəs rejimini pozmaqdan, Azərbaycanın nəinki, hərbi mövqelərini, hətta mülki əhalisinin yaşayış yerlərini atəşə tutmaqdan çəkinmədi.

2020-ci il sentyabrın 27-də də Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində münaqişə yenidən alovlandı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev o gün xalqa müraciət etdi. Bildirdi ki, Azərbaycan heç bir təxribata əl atmamışdır, sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır: "Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır".

O gün Azərbaycanın bütün bölgələrində yaşayan gənclərimiz torpaqlarımızın işğaldan azad olunması uğrunda mübarizəyə qoşulmaq üçün Ali Baş Komandan İlham Əliyevin bir əmrinə müntəzir olduqlarını göstərdilər. İlham Əliyev: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", - dedi və bu haqq işi uğrunda minlərlə Azərbaycan gənci ayağa qalxdı.

44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycan gənclərində torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu ortaya qoydu. Gənclərimiz həm döyüş meydanında, həm də kompüter arxasında informasiya müharibəsində vətənpərvərlik hisslərini nümayiş etdirdilər.

Bu müharibə Ermənistan silahlı qüvvələri üçün əbədi gözdağı oldu. İkinci Qarabağ müharibəsində Azərbaycan yalnız öz möhtəşəm hərbi gücünü göstərərək Ermənistanı məğlubiyyətə uğradıb, otuz ilə yaxın işğal altında qalan ərazilərini geri qaytarmadı, həm də azərbaycanlıların vətənə sevgilərinin, dövlətlərinə sədaqətlərinin sonsuzluğu meydana çıxdı. Sevindirici, təqdirəlayiq bir məqam da bu dövlətin, bu millətin gənclərinin qətiyyəti, mərdliyi, igidliyi, vətənpərvərliyi oldu.

İşğala son qoyan Azərbaycanın qüruru olan bu gənclərin öz dövlətinə və millətinə hələ çox nailiyyətlər qazandıracağı şübhəsizdir.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

**İstedadlılarımız**

# Sağlam düşüncə ilə "Əngəlsiz gülümsə"yənlər

...Onlar ictimaiyyətdə qabiliyyətləri, istedadları və yüksək bacarıqlı olmaları ilə də tanınırlar. Ona görə də fiziki məhdudiyyətli olmaları barədə ciddi problem yaşamırlar. Axı həm də bu insanlar dövlətin və cəmiyyətin diqqət və qayğısından kənarda qalmırlar.






Belə istedadlılardan biri də Abdullayev Abdulbağı Səlamət oğludur. 1987-ci ildə Masallı rayonunun Gəyəçöl kəndində dünyaya göz açıb. Orta təhsillidir. Sonradan aldığı travmadan hərəkət məhdudiyyətlidir.

Atalar deyib: "Bir yandan kəsən Allah, digər yandan verir". Abdulbağının da sonradan aldığı zədə onun sanki istedadlı olmasını üzə çıxarması üçün bir vəsiləyə çevirib. Ağac üzərində oyma sənəti onu daha geniş arenaya çıxararaq tanıdıb. 2018-ci ildə əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiya Mərkəzinə gələn bu gənc hazırladığı əl işlərində tarixi mövzulara daha çox yer ayırır. Özgə birisinin əlində adicə ağac, taxta parçası olan materiala "can verir". Buna görə də ağac onun əlinin sığalı ilə sənət əsərinin nümunəsinə çevrilir.

Ağac üzərində saldığı naxışlar özünəməxsusluğu ilə seçilir. Respublikada keçirilən sərgilərdə müxtəlif mövzulu əl işləri ilə iştirak edir və yüksək zövqlü olduğunu təsdiqləyir.

Abdulbağının istedadı yalnız incəsənət sahəsində deyil. O, həmçinin idmanı da sevir və özünün qabiliyyətini sınamaqdan çəkinmir. Milli paralimpiya idman növlərindən olan əlil arabasında qılıncoynatma idman növü üzrə məşqlər edən bu gənc dəfələrlə respublikada və ölkəmizdən kənarda keçirilən yarışların iştirakçısı və qalibi sayılıb. Azərbaycanda keçirilən çempionatda əlil arabasında qılıncoynatma növü üzrə birinci yerin qalibi olmuş Abdulbağı taleyinə yazılanlarla barışıb, cəmiyyətə inteqrasiya üçün bütün gücünü səfərbər edir.

Sağlamlığın qədrini bilməyi hər kəsə tövsiyə edənlər həyata daha çox bağlı olur və onun üçün mübarizədən yorulmurlar. Belə gənclərdən biri Nübar, o birisi isə bacısı Leyladır. Nübar 1995-ci, Leyla isə 1997-ci ildə Bakıda dünyaya göz açıb. 136 nömrəli tam orta məktəbi 2-ci sinfə qədər oxuya bilən hərəkət məhdudiyyətli bacıların uşaqlıqdan toxuculuğa həvəsləri olub. 2016-cı ildən əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiya Mərkəzində bu sənətin sirlərinə daha yaxından bələd olublar. Hər ikisi saplarla müxtəlif növ oyuncaq suvenirlər hazırlamağı bacarır.

2019-cu ildə Əmək və Əhalinin Sosial müdafiəsi Nazirliyinin "Sağlam düşüncə" Gənclər Təşkilatı İctimai Birliyinin Avropa İttifaqının "ERASMUS" proqramı çərçivəsində azərbaycanlı və türk əlilliyi olan gənclərin birgə mübadilə proqramının keçirilməsinə dair əməkdaşlıq müqaviləsi imzalanıb. Bacılar həmin müqaviləyə əsasən, "Əngəlsiz gülümsə" layihəsi ilə Türkiyənin Ankara şəhərində "Engelli Kültür Egitim" vakfında iki aylıq təcrübə mübadiləsi də keçiblər. Hər ikisi də Avropa könüllüsü olan istedadlı bacılar keçirilən sərgilərdə öz bacarıqlarını, sənət əsəri sayılan əl işlərini sevə-sevə nümayiş etdirirlər.

*M.NƏRİMANOĞLU, "Azərbaycan"*

**Gənclik və idman**

# Cüdoçunun uğurları

Əli uşaqlıqdan güləşin əlbəyaxa idman növü cüdoya böyük maraq göstərir. Altı ilə yaxındır ki, "Judo Club-2012" klubda məşqçi, dünya çempionu Zaur Paşayevin rəhbərliyi altında müntəzəm olaraq məşqlərə qatılır, cüdonun ən mürəkkəb sirlərinə yiyələnmək üçün öz üzərində möhkəm işləyir.








Həmyaşıdlarının dediyinə görə, onun cüdoya olan böyük marağının və əzmkarlığının nəticəsidir ki, Əli Arzumanlı 2018-ci ildə DİN-in İdman cəmiyyətində 13-15 yaşlılar arasında keçirilən yarışda birinci yeri tutmuşdur. Bundan bir il sonra Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Judo Club - 2012" yarışmasında da birinci yerin qalibi olmuşdur. Az sonra isə qonşu Gürcüstan Respublikasında keçirilən cüdo üzrə turnirdə üçüncü yeri tutmuş və ən yaxşı texnikaya görə diplomla təltif edilmişdir. 2019-cu ildə Türkiyənin Trabzon şəhərində keçirilən turnirdə 34 kq çəki dərəcəsində birinci yerin sahibi olmuşdur.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində Ermənistan işğalçı qüvvələri üzərində qazanılmış tarixi qələbədən sonra Əli Gəncə şəhərində Zəfər gününə həsr olunmuş Gəncə Olimpiya İdman Klubunun cüdo üzrə açıq birinciliyində kürsünün ən uca pilləsinə yüksəlmişdir. Əli ötən il Türkiyənin Kocaəli şəhərində keçirilən beynəlxalq turnirdə həmyaşıdları arasında qalib olaraq I yerə layiq bilinmişdir.

Əli Arzumanlı gəncdir, Bakı şəhəri, Səbail rayonu, T.İsmayılov adına 6 nömrəli məktəb-liseyin 7-ci sinif şagirdidir. Kiçik qardaşı Murad da cüdoist olmaq istəyir. O da müəyyən yarışların iştirakçısı olub, mükafatlara layiq görülüb.

Dünya çempionu Zaur Paşayevin dediklərindən: "Respublikamızda gənclərə göstərilən qayğıya və yaradılan şəraitə görə dövlət başçısına minnətdarıq. Dövlətimizin idmana və gənclərə olan diqqət və qayğısı nəticəsində onlarca Əli kimi idmançımız var. Əli ümidverici gəncdir, həm fiziki görkəmi, həm də cüdoya olan həvəsi əminlik yaradır ki, o, yaxın gələcəkdə daha böyük qələbələrlə bizi sevindirəcək".

*Rəhman SALMANLI, "Azərbaycan"*

# Qarabağın ekoloji qiymətləndirilməsi layihəsinin yekun tədbiri keçirilib





Martın 4-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" layihəsinin yekunlarına həsr edilmiş toplantı keçirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Konqres Mərkəzində baş tutan tədbirdə layihənin gənc iştirakçıları ilə yanaşı, IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) təmsilçiləri, eləcə də media nümayəndələri iştirak ediblər.

IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov bildirib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Ermənistan tərəfindən 30 illik işğalı nəticəsində Azərbaycanın təbiətinə ciddi ziyan vurulub. Ərazilərin yandırılması, su resurslarının çirkləndirilməsi, meşələrin, təbiət abidələrinin və ümumiyyətlə, yeraltı və yerüstü sərvətlərin talan edilməsi nəticəsində regionun ekoloji tarazlığı pozulub.

Qeyd olunub ki, işğaldan azad olunmuş ərazilərin, o cümlədən təbii sərvətlərimizin vəziyyətinin qiymətləndirilməsi və bərpa edilməsi istiqamətində dövlət səviyyəsində mühüm addımlar atılmaqdadır. Həmin tədbirlərə gənc ekoloqların cəlb edilməsi məqsədilə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Gənclər Fondu tərəfindən "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" birgə layihəsinə start verilib. Layihədə iştirak üçün təbiət elmləri sahəsində təhsili olan və bu sahədə fəaliyyət göstərən 300-dən çox gəncdən müraciət daxil olub, onlardan 60 nəfər müsahibə əsasında seçilib. İştirakçılar 6 istiqamət, o cümlədən bioloji müxtəliflik, geologiya, su ehtiyatları, meşələrin qorunması, hidrometeoroloji və monitorinq xidməti, topoqrafiya və xəritəçəkmə üzrə qruplara bölünüb. Ərazilərdə səfərlərdən öncə müvafiq istiqamətlər üzrə nəzəri mühazirələr təşkil edilib. Həmçinin keçmiş münaqişə zonasında çalışmağın potensial təhlükələrini nəzərə alaraq sağlamlıq və təhlükəsizlik təlimləri keçirilib. Növbəti mərhələdə gənc ekoloqların Cəbrayıl, Füzuli, Qubadlı, Xocavənd, Zəngilan, Ağdam və Şuşa daxil olmaqla işğaldan azad edilmiş ərazilərə çoxsaylı səfərləri təşkil edilib. Səfərlər zamanı onlar həmin ərazilərdə aparılan ekoloji qiymətləndirilmədə, o cümlədən xüsusi cihaz və qurğularla havada olan radiasiya fonu, suyun keyfiyyəti, torpağın analizi və s. proseslərdə iştirak edib, işğal nəticəsində törədilən ekosidi əyani şəkildə görüblər.

S.Şükürovun sözlərinə görə, "Qarabağı qoru" şüarı altında həyata keçirilən layihənin gənc iştirakçıları ekoloji qiymətləndirilmə və monitorinq üzrə bilik və təcrübələrini artırmaq, eyni zamanda azad olunmuş ərazilərdə bərpa və mühafizə işlərinə töhfə vermək imkanı əldə ediblər. Aparılmış müşahidə və təhlillər əsasında əldə edilən məlumatların geniş maarifləndirmə və təbliğat işlərində istifadə olunması nəzərdə tutulur.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov gənclər siyasətinin dövlət siyasətinin mühüm və ayrılmaz tərkib hissəsi olduğunu, Azərbaycan gəncliyinin ictimai həyatın bütün sahələrində kifayət qədər fəal iştirak etdiyini diqqətə çatdırıb. Bildirilib ki, gənclər ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər. Ölkə rəhbəri özünün çıxışlarında mütəmadi olaraq gənclərin ictimai-siyasi və humanitar proseslərdə göstərdiyi səyləri nəzərə alaraq gəncləri novator, yeniliyə can atan və vətənpərvər insanlar kimi təqdim edir.

"Hər bir sahədə olduğu kimi, ətraf mühitin mühafizəsində də gənclərin dəstəyinə böyük ehtiyac var. Mövcud ekoloji problemlərin aradan qaldırılmasında, ekoloji şüurun inkişaf etdirilməsində sizin səyləriniz, təşəbbüskarlığınız böyük rol oynayır. "Qarabağı qoru" şüarı altında keçirilən layihənin iştirakçıları olaraq gənclərin bir qismi işğaldan azad edilmiş ərazilərə səfər etdilər. Ermənistanın Azərbaycanın ətraf mühitinə, bioloji müxtəlifliyinə, meşələrinə, yeraltı və yerüstü təbii ehtiyatlarına vurduğu ciddi ziyana şahid oldular. Kəsilmiş ağacları, məhv olmuş yaşıllıq ərazilərini gördülər, su, hava, torpaq nümunələri üzərində müşahidələr apardılar, dəyən ekoloji ziyanların hesablama qaydaları ilə tanış oldular. Hazırda həmin ərazilərdə bərpa prosesi gedir. Bu sahədə ixtisaslı kadrların yetişməsi, gənclərin görüləcək işlərdə yaxından iştirakı çox təqdirəlayiqdir. Gənc ekoloqlar kimi belə layihələrdə bilik və bacarıqlarınızı, təcrübənizi artırıb ekoloji tarazlığın qorunmasında səy göstərməniz bizim işimizə böyük töhfədir", - deyə V.Kərimov bildirib.

Azərbaycan Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov müharibə bitdikdən sonra gənclərdən həmin ərazilərin dirçəldilməsi prosesində iştirakla bağlı çoxlu müraciətlər daxil olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, gənclər hətta könüllü olaraq fiziki işlərdə belə çalışmağa, həmin ərazilərin bərpasında dövlətin atdığı addımlara dəstək olmaq niyyətlərini ifadə edirlər. Qeyd edilib ki, azad edilmiş ərazilərdə törədilmiş ekosidin və onun miqyasının müəyyən edilməsi ilə bağlı IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihənin xüsusi özəlliyi ondan ibarətdir ki, gənclər ilk dəfə elm könüllüsü kimi araşdırmalara başladılar. Kifayət qədər uğurla həyata keçirilən layihə gələcəkdə gənclərin öz savadları, dünya görüşləri və təcrübələrindən istifadə edərək bu cür araşdırmaları fərqli sahələrdə də həyata keçirə bilmələrinə bir töhfədir.

"Gənclər Fondu olaraq dövlət başçısının göstərişi və tapşırıqlarına uyğun olaraq məqsədimiz gənclərin vətənpərvər, sağlam və savadlı yetişməsinə dəstək verməkdir. Eyni zamanda Azərbaycan gəncliyinin yüksək potensialından istifadə edərək dövlətimizin fərqli sahələrdə həyata keçirdiyi siyasətə də gənclərimizin töhfə verməsinə çalışırıq. Bu layihə də gəncliyin dövlətə dəstəyinin bariz nümunələrindən biridir", - deyə icraçı direktor qeyd edib.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin maarifləndirmə şöbəsinin rəisi Ramil Əzizovun sözlərinə görə, Vətən müharibəsindən sonrakı dövr ərzində azad edilmiş ərazilərdə ANAMA tərəfindən aparılan əməliyyatlar nəticəsində 75 milyon kvadratmetrdən çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. Otuz minə yaxın müxtəlif markalı mina və partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Onların böyük əksəriyyəti piyadalar əleyhinə minalardır. Əməliyyatlar zamanı, həmçinin improvizə olunmuş, əllə düzəldilmiş, xüsusi formaya salınmış partlayıcı qurğular, kustar üsulla hazırlanmış digər sursatlar da aşkarlanıb.

O, layihə çərçivəsində gənclərin ANAMA-nın mütəxəssisləri tərəfindən təhlükəli ərazilərdə davranış qaydaları ilə bağlı məlumatlandırıldığını da diqqətə çatdırıb.

Tədbir zamanı IDEA İctimai Birliyinin əməkdaşı, layihə rəhbəri Gülsarə Qasımova ekoloji qiymətləndirmənin yekun nəticələrinə dair hesabatı təqdim edib. Hesabatda Qarabağın işğaldan əvvəlki vəziyyətinə nisbətən hazırkı ekoloji durumuna dair əldə edilmiş məlumatlar əks olunub. Həmçinin toplantıda layihə çərçivəsində görülmüş işlərə həsr edilmiş videoçarx nümayiş etdirilib.

Daha sonra gənclərə uğurla həyata keçirilən layihədə iştirak üçün sertifikatlar, eləcə də Qarabağın ekoloji qiymətləndirilməsi prosesinə töhfələrinə görə təşəkkürnamə və xatirə hədiyyələri təqdim edilib, ən maraqlı paylaşım qalibi mükafatlandırılıb.

# "YAŞAT" Fondunun şəhid övladlarının yüksəksəviyyəli təhsil imkanlarından yararlanmalarına dəstəyi davam edir





Əməkdaşlıq çərçivəsində hazırda 6 şəhid övladı XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzində təhsilini davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ümumilikdə "YAŞAT" Fondu tərəfindən təhsil istiqaməti üzrə 132 şəhid ailə üzvünün 167 müraciəti, 27 əlilliyi müəyyən olunmuş şəxsin 32 müraciəti təmin edilib.

Fonda müraciət üsulları və ətraflı məlumat üçün Çağrı Mərkəzi: 8110.

# Mərdəkan Reabilitasiya Pansionatına mediatur təşkil edilib









Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Mərdəkan Reabilitasiya Pansionatında əlilliyi olan şəxslərə, o cümlədən müharibə əlillərinə göstərilən reabilitasiya xidmətləri ilə media nümayəndələrinin tanışlığı üçün mediatur təşkil edilib.

AZƏRTAC xəbər verir ki, mediatur zamanı ötən il agentliyin reabilitasiya müəssisələrində 9325 nəfərə reabilitasiya xidmətlərinin göstərildiyi diqqətə çatdırılıb. Bildirilib ki, əlilliyi olan şəxslərə əvvəlki ilə nisbətən 37 faiz çox olmaqla 48 min reabilitasiya vasitəsi verilib. 8716 şəxs reabilitasiya vasitələri ilə təmin olunub ki, onlardan 1200 nəfəri ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərdir. 2022-ci ilin ötən dövründə isə əlilliyi olan 2050 şəxsə 8800 reabilitasiya vasitəsi verilib, 3812 nəfərə isə reabilitasiya xidmətləri göstərilib.

Qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, 2020-ci ilin dekabr ayından müharibə əlillərinin yüksək texnologiyalı protezlərlə təminatına başlanılıb. Ötən dövrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 44 günlük Vətən müharibəsinin 188 qazisi 196 ədəd, I Qarabağ müharibəsi əlilləri və Vətən müharibəsinə qədərki dövrdə hərbi səbəblərlə əlaqədar əlilliyi müəyyən olunmuş hərbçilərdən ibarət 75 qazi 80 ədəd yüksək texnologiyalı protezlə təmin olunub.

Bildirilib ki, Mərdəkan Reabilitasiya Pansionatı 2019-cu ilin dekabrında əsaslı təmirdən sonra istifadəyə verilib. Pansionatda laboratoriya, ultrasəs, elektrokardioqrafiya müayinələri, effektiv təsirə malik fizioterapevtik müalicə prosedurları tətbiq edilir, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji xidmət həyata keçirilir. Müəssisədə terapevt, nevropatoloq, kardioloq, endokrinoloq, epidemioloq və d. ibarət həkim personalı çalışır. Reabilitasiya sahəsində müasir metodika və texnologiyalardan istifadə olunmaqla qabaqcıl təcrübələrin öyrənilməsi əsasında müalicə metodları tətbiq edilir.

Mərdəkan Reabilitasiya Pansionatının direktoru Səidə Babazadə deyib: "Pansionatda aparılan əsaslı təmirdən sonra bərpa prosedurları üçün hər cür şəraiti yaradılıb. 150 çarpayılıq müəssisədə fizioterapiya, müalicəvi bədən tərbiyəsi, əmək terapiyası və psixososial reabilitasiya xidmətləri göstərilir. İl ərzində 3 minə qədər əlilliyi olan şəxs burada müalicə olunur və onların hər birinə qoyulan diaqnoza və əlillik dərəcəsinə görə həkim təyinatı əsasında 14 gün ərzində prosedurlar aparılır. Hazırda müəssisədə müxtəlif əlillik dərəcəsi olan 69 nəfər, o cümlədən birinci Qarabağ müharibəsi və Vətən müharibəsi əlilləri öz müalicəsini davam etdirir".

Media nümayəndələri Pansionatda yaradılan şəraitlə və göstərilən reabilitasiya xidmətləri, burada tətbiq olunan fizioterapevtik prosedurlarla tanış olublar.

## 5 Mart - Bədən Tərbiyəsi və İdman Günüdür

# Azərbaycan idmançıları yeni zirvələr fəth edirlər





Sağlamlığın qorunması və möhkəmlənməsində, gənclərin fiziki inkişafında, ölkənin idman şərəfinin beynəlxalq aləmdə uca tutulmasında bədən tərbiyəsi və idmanın müstəsna əhəmiyyətini nəzərə alan Azərbaycan Prezidentinin 2005-ci il 4 mart tarixli sərəncamı ilə hər il martın 5-i ölkəmizdə Bədən tərbiyəsi və idman günü kimi qeyd olunur.

"Bədən tərbiyəsi və idman haqqında" qanun bu sahədə fəaliyyətin təşkilati-hüquqi, sosial-iqtisadi əsaslarını və dövlət siyasətinin prinsiplərini müəyyən edir, vətəndaşın bədən tərbiyəsi və idmanla məşğul olmasına imkan yaradır.

Sevindirici haldır ki, bu gün Azərbaycan idmanı inkişafının ən yüksək dövrünü yaşayır. Hər il müxtəlif nüfuzlu beynəlxalq yarışların Azərbaycanda keçirilməsi və atletlərimizin turnirlərdə qazandığı yüksək nəticələr idmanda ölkəmizə böyük imic qazandırıb. Bu bayram günündə idmanımızın ötən bir ildə keçdiyi yola nəzər salınsa, böyük nailiyyətlərlə əlamətdar olduğunu görmək olar.

Ötən il idmançılarımız qatıldıqları beynəlxalq yarışlarda 519 medal qazanıblar. Onlardan 227-si olimpiya (62 qızıl, 62 gümüş, 103 bürünc) və 292-si isə qeyri-olimpiya (117 qızıl, 85 gümüş, 90 bürünc) növlərinin payına düşür. Milli komandalarımız isə 182 beynəlxalq turnirə qatılıb.

Ölkəmizin keçən il "Formula-1" Azərbaycan Qran-prisinə, futbol üzrə Avropa çempionatına və digər mötəbər yarışlara uğurla evsahibliyi etməsi, atletlərimizin beynəlxalq turnirlərdə qazandıqları parlaq qələbələr idman tariximizə qızıl hərflərlə yazıldı.





Yola saldığımız ildə yaddaqalan idman hadisələrindən biri Yaponiyanın paytaxtı Tokioda keçirilən Yay Olimpiya Oyunları idi. Ümumiyyətlə, "Tokio-2020" bir sıra özünəməxsus cəhətləri ilə əvvəlki olimpiadalardan seçilirdi. Əsas səbəb də o idi ki, Yaponiya paytaxtında tarixən ikinci dəfə təşkil edilən Olimpiya oyunları bütün dünyada tüğyan edən koronavirus pandemiyası səbəbindən bir il müddətinə təxirə salınmışdı. Təşkilatçıların birlikdə qəbul etdikləri qərara əsasən, əcnəbi tamaşaçıların yarışlara azarkeşlik etmək üçün Yaponiyaya gəlişi qadağan edilmişdi. Yarışları izləmək üçün Yaponiyaya gələn rəsmi nümayəndə heyətlərinin tərkibi də kəskin azaldılmışdı. Dünyanın 206 ölkəsindən 11 mindən çox idmançının qatıldığı turnirdə qalib olmaq hər bir atletin arzusu idi. Çünki planetin ən güclülərinin mübarizəsində ilk 3 pillədən birində yer almaq elə də asan qazanılan nəticə deyil. Bu baxımdan dördilliyin zirvə yarışına 44 idmançı ilə qatılan Azərbaycan komandasının turniri 3 gümüş və 4 bürünc medalla başa vurması uğur hesab olunmalıdır.

Azərbaycanın dünya və qitə miqyaslı turnirlərə evsahibliyi etməsi artıq ənənəvi hal alıb. Ötən il cüdo üzrə "Böyük dəbilqə" beynəlxalq turniri, aerobika və batut gimnastikası üzrə dünya çempionatları, 28-ci dünya yaş qrupları yarışları, şahmat üzrə Vüqar Həşimov Memorialı, "Formula-1" Azərbaycan Qran-prisi, paracüdo üzrə Qran-prisi kimi yarışlar da Azərbaycanın yüksək təşkilatçılıq etdiyi növbəti tədbirlər kimi tarixə yazıldı.

2021-ci ildə ölkəmiz 15 beynəlxalq yarışa evsahibliyi edib. Onlar sırasında əsas yarışlardan biri isə futbol üzrə Avropa çempionatının final mərhələsinin keçirilməsi idi. "Avro-2020" bir il təxirə salındıqdan sonra Bakı da daxil olmaqla 11 şəhərdə təşkil edildi və Azərbaycan futbol azarkeşləri paytaxtımızda qrup mərhələsinin 3 və dörddəbir finalın bir oyununu tribunalardan canlı izləmək imkanı qazandılar.

Dünyanın ən böyük idman tədbirlərindən biri olan "Formula-1" üzrə dünya çempionatının ötən mövsümdə altıncı mərhələsi - Azərbaycan Qran-prisi maraqlı və gərgin mübarizə ilə yadda qaldı. Azərbaycan Qran-prisi "Red Bull Racing Honda" komandasının meksikalı üzvü Serxio Peresin qələbəsi ilə başa çatdı. İkinci yeri "Aston Martin" komandasının almaniyalı pilotu Sebastyan Fettel, üçüncü yeri isə "AlphaTauri" komandasının fransalı pilotu Pyer Qasli tutdu.

2021-ci ildə bir sıra yeni idman mərkəzləri istifadəyə verildi. Azərbaycan Prezidentinin iştirakı ilə Goranboy Olimpiya İdman Kompleksinin və Şamaxı şəhər stadionunun açılışı, həmçinin Milli Gimnastika Arenasının yeni məşq binasında, Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə tanışlıq oldu.

Göründüyü kimi, Azərbaycanın idman potensialı ildən-ilə daha da güclənir. Hər il beynəlxalq turnirlərdə yüzlərlə medal qazanılır. Bədən tərbiyəsi və idmanın inkişafı naminə yürüdülən dövlət siyasəti düşünülmüş, məqsədyönlü olduğundan gözlənilən uğurlu nəticələr əldə edilir.






***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İşğaldan azad edilən ərazilərə icazəsiz keçmək istəyən şəxslər yaxalanıblar

Tərtər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş tədbirlər nəticəsində mina və digər partlayıcı vasitələrlə çirkləndirilmiş əraziyə daxil olaraq özünün və digərlərinin həyatını təhlükə qarşısında qoyan şəxslər saxlanılıblar.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, nəzarət postlarından kənar yollarla rayonun Həsənqaya kəndi ərazisindəki minalarla çirkləndirilmiş əraziyə dəmir tullantıları toplamaq məqsədilə daxil olan 4 nəfər polis əməkdaşlarının keçirdikləri tədbirlərlə saxlanılıb. Araşdırmalarla onların Həsənqaya kənd sakinləri - Z.Həsənov, A.Həsənov, S.Həsənov və Y.Həsənli olduqları müəyyən edilib.

Saxlanılan şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokollar tərtib olunaraq rayon məhkəməsinə göndərilib. Onlardan ikisi inzibati qaydada 10 gün müddətinə həbs, digər ikisi isə cərimə ediliblər.

Qeyd edək ki, S.Həsənov və A.Həsənov əvvəllər də törətdikləri analoji əmələ görə inzibati qaydada məsuliyyətə cəlb olunublar.

# AZAL daha 191 həmyerlimizi Vətənə çatdırıb



"Azərbaycan Hava Yolları" (AZAL) daha 191 həmyerlimizi Vətənə çatdırıb.

Aviaşirkətdən AZƏRTAC-a bildirilib ki, AZAL-ın növbəti təxliyə reysi ilə Rumıniyanın Yassı Beynəlxalq Hava Limanından 13-ü uşaq olmaqla 191 Azərbaycan vətəndaşı Bakıya çatdırılıb. Daha əvvəl AZAL-ın təxliyə reysləri ilə Ukraynada baş verən hadisələrlə əlaqədar ölkəyə qayıtmaq istəyən yüzlərlə həmyerlimiz Azərbaycana qayıdıb.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, AZAL hər gün həmvətənlərin daşınması üçün təxliyə uçuşları yerinə yetirir. Azərbaycan vətəndaşları üçün təxliyə reysləri ödənişsiz həyata keçirilir.

Ukraynanı tərk etmiş ölkəmizin vətəndaşları Vətənə qayıtmaq üçün Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri ilə əlaqə saxlaya bilərlər.

# Naxçıvan Qarnizonu Qoşunlarında komandir hazırlığı məşğələləri keçirilib





Komandir heyətinin bilik, bacarıq və vərdişlərinin təkmilləşdirilməsinin diqqət mərkəzində saxlanıldığı Naxçıvan Qarnizonu Qoşunlarında tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələləri keçirilib.







Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, "Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən komandir hazırlığı məşğələlərində əsas diqqət zabitlərin bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsinə və keçirilən tədbirlərin təşkilinə yaradıcılıqla yanaşılmasında özünəinam hissinin aşılanmasına yönəldilib.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında və Xüsusi Riskli Xilasetmə Xidmətində keçirilən məşğələlərdə yanğınsöndürmə avtomobillərinin və yanğın-texniki avadanlıqlarının, xilasedici qayıqların və digər vasitələrin taktiki-texniki xüsusiyyətləri, istismar qaydaları, texniki xidmət və təmiri haqqında, xilasedici dalğıclar qrupunun dalğıc avadanlıqlarından istifadəsi qaydaları barədə məlumat verilib.

Qəzaların aradan qaldırılması, yanğınların aşkar edilməsi və söndürülməsi, şəxsi heyətin, silah və texnikanın, əmlakın mühafizəsi və təhlükəsiz təxliyəsi üzrə keçirilən məşğələlər zamanı beynəlxalq təlimlərdə qazanılan təcrübənin tətbiqi ilə axtarış-xilasetmə, qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması ardıcıllığı, qayda və üsulları praktiki olaraq göstərilib.

Tabor, divizion komandirləri və müavinləri ilə keçirilən komandir hazırlığı məşğələlərində Vətən müharibəsi zamanı qazanılmış təcrübəyə əsasən taktiki-sıra məşğələlərinin təşkili və hazırlanması metodikası göstərilib, əməliyyat-taktiki hesablamaların aparılmasının qoşunların fəaliyyətinin planlaşdırılmasında və qərarın qəbul edilməsində vacibliyi qeyd edilib.

Müasir tank texnikalarının gecə və gündüz şəraitində döyüşdə tətbiqi ilə minalı sahələrdən və maneələrdən keçməklə şərti düşmənin atəş zərbələrindən qorunması və atəş tapşırıqlarını yerinə yetirməsi praktiki olaraq göstərilib.

Birləşmə, hissə və bölmələrin maddi-texniki vasitələrlə təmin edilməsi ilə yanaşı, döyüş sahəsindən və təbii maneələrdən zədələnmiş texnikanın təxliyəsi, yenidən istifadəyə hazır vəziyyətə gətirilməsi və təmir emalatxanalarının fəaliyyəti sualları işlənilib.

Məşğələlərin yekununda zabitlərin məşğələ və təlimlərin keçirilməsi üzrə hazırlıqlarında müsbət nəticələr əldə edildiyi, qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanaraq bölmələrin döyüş hazırlığının yüksəldilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

# Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı gözlənilir

Azərbaycanda martın 5-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 5-7° isti, gündüz 12-16° isti olacaq. Bakıda gecə 5-7° isti, gündüz 14-16° isti olacaq. Atmosfer təzyiqi 753 millimetr civə sütunundan 758 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, martın 5-də Abşeron yarımadasında arabir güclənən gilavar küləyinin əsəcəyi gözlənilir ki, bu da ürək-damar xəstəlikləri olan bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz olacağı proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 9-14° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacağı ehtimalı var.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında havanın arabir yağıntılı olacağı, qar yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-5° şaxta, gündüz 3-8° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə ayrı-ayrı yerlərdə şimşək çaxacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 0-5° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5° şaxta, dağlarda 10°-dək şaxta, gündüz 0-5° isti olacaq.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 7-12° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 9-14° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə havanın yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 4-6°, gündüz 9-14° isti, dağlarda gecə 4-6°, gündüz 6-9° isti olacaq.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan zəncir, işlənmiş təkər və takelaj dəstlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1176.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun Xəzər Dəniz Neft Donanmasının, Əbilov küçəsi 25 ünvanında, həyətyanı sahə və Qaradağ sahəsində kiçik qabaritli gəmilər və katerlərin yanalma körpüsünə asfalt-beton örtüyünün vurulması işlərinin (mal-material və işçilik birlikdə) satın alınması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.

Müraciət üçün son müddət 11 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



Təkrar

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (əlaqələndirici şəxs: Səbinə Məmmədova, telefon: (+994 12) 310 07 70 (daxili 4444), e-mail: smammadova@its.gov.az) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. Ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan reaktivlərin və laboratoriya sərfiyyat mallarının satın alınması

İştirak haqqı: 600.00 (altı yüz) manat

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1) Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
*2) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış;*
*4) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*5) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*6) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
*7) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*8) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
*9) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat;*
*10) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış;*
*11) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
*12) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*13) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*14) İstehsalçıdan malların təchizetmə məktubu;*
*15) İddiaçının qapalı sistemli reaktivlər üzrə rəsmi distribütorluq və ya partnyorluq barədə müvafiq sənəd;*
*16) İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*17) Tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənəd;*
*18) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08.04.2022-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **18.04.2022-ci il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı **19.04.2022-ci il saat 16:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Hüseyn Hüseynova əzizi

**ZABİLƏ QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Çingiz Abbasova qardaşı

**RƏHMAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi

**MİNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5695
Sifariş 617
Qiyməti 40 qəpik